# AİLƏ QADIN UŞAQ

2020 / №25



*“Biz Qarabağı dirçəldəcəyik və onu dünyanın ən inkişaf etmiş regionlarından birinə çevirəcəyik”*

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyev**

## TƏSİSÇİ

Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri
üzrə Dövlət Komitəsi

## BAŞ REDAKTOR

Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri
üzrə Dövlət Komitəsinin sədri

## REDAKSİYANIN ÜNVANI

AZ1000, Bakı şəhəri,
Ü.Hacıbəyli küçəsi 80,
Hökumət Evi, IV alaqapı
**Tel**: (+994 12) 498 80 93
www.scfwca.gov.az
**E-mail**: office@scfwca.gov.az

## NƏŞRİYYATIN ÜNVANI

“Letterpress” Nəşriyyar Evi
Bakı şəh., A.Naxçıvani 74
Tel.: (+994 12) 561 30 03
e-mail: office@letterpress.az



1 Ön söz

2 Vətən Müharibəsi – Zəfərlə Qayıdış

6 Erməni riyakarlığı – Hədəf mülki əhali

12 Ailə siyasəti istiqamətində keçirilən tədbirlər

15 Qadın siyasəti və gender bərabərliyi istiqamətində keçirilən tədbirlər

17 Uşaq siyasəti istiqamətində keçirilən tədbirlər

23 Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyəti

29 Beynəlxalq əməkdaşlıq

34 Qəbul edilən hüquqi sənədlər

41 COVİD-19 pandemiyasının ailələrə təsirinin təhlili

48 Müsabiqə

50 Sosial şəbəkələrdə fəaliyyət

51 Uşaq Səfirlər Məclisi üzvlərinin qələbə təəssüratları

54 Psixoloq məsləhəti

# Ön söz

**Əziz oxucular,**



“Ailə Qadın Uşaq” jurnalının bu sayı xalqımız üçün tarixi və şərəfli günlərə təsadüf edir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində xalqımız Zəfər günlərini yaşayır. 44 gün davam edən Vətən müharibəsi Ali Baş Komandanın qətiyyətli iradəsindən, xalqımızın möhtəşəm dəstəyindən ilhamlanan ordumuzun gücü hesabına Azərbaycanın şanlı qələbəsi ilə yekunlaşmışdır. Müzəffər ordumuz illərlə Ermənistan tərəfindən işğal altında olan torpaqlarımızı azad edərək dünya hərb tarixinə parlaq səhifələr yazmış, bütün sərhədlərimiz üzərində suveren hüquqlarını bərpa etmişdir.

İkinci Qarabağ müharibəsi zamanı beynəlxalq humanitar hüququn norma və prinsiplərinə, eləcə də atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya qurğuları və raketlərdən açılan atəş nəticəsində uşaqlar da daxil olmaqla mülki əhali qəsdən hədəf seçilərək 100 nəfər qətlə yetirilmiş və 416 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Xüsusilə, döyüş zonasından uzaqda yerləşən şəhərlər, yerli əhalinin məskunlaşdığı yaşayış məntəqələri, rayon mərkəzləri, inzibati binalar, tibb məntəqələri, xəstəxanalar, sosial obyektlər, təhsil müəssisələrinin açıq şəkildə hədəf seçilməsi erməni xislətini bir daha ortaya qoydu.

Ermənistan tərəfindən törədilən terror əməlləri nəticəsində əhali həm də psixoloji problemlərlə üzləşmişdir. Zərərçəkmiş ailələrlə işin aparılması çərçivəsində bütün dövlət qurumları kimi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də fəaliyyət göstərmişdir. Belə ki, Komitənin nəzdində olan Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin işçiləri ailələrə səfər edərək, onların psixososial vəziyyətinin yaxşılaşdırılması və hüquqi dəstək istiqamətində xidmət göstərmişlər.

Müharibə ilə yanaşı gözəgörünməz düşmən olan və bütün dünyada qlobal problem sayılan COVİD-19 pandemiyası ilə də ölkə və xalq olaraq mübarizə aparılır. Komitə tərəfindən pandemiya dövründə xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq virusla mübarizə istiqamətində təbliğat kampaniyaları və maarifləndirmə işləri həyata keçirilmişdir. Xüsusilə, regionlarda Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyəti sahəsində işlər gücləndirilmişdir. Eyni zamanda, ailə və gender məsələləri üzrə araşdırmalar aparılmış, bələdiyyələrdə gender bərabərliyi üzrə məsul şəxslər üçün təlimlər keçirilmiş, uşaq müdafiəsi sahəsində tədbirlər davam etdirilmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin pandemiya ilə bağlı ölkədə keçirilən sosial izolyasiya tədbirləri nəticəsində ailələrdə şəxslər arasındakı münasibətlərdə yaranmış vəziyyəti öyrənmək məqsədilə apardığı təhlil jurnalda öz geniş əksini tapmışdır.

Bu il ərzində Azərbaycan Respublikasında dövlət uşaq siyasətinin həyata keçirilməsi və uşaqların hüquqlarının müdafiəsinin kompleks şəkildə təmin edilməsi məqsədi ilə ölkə Prezidenti İlham Əliyevin 2020-ci il 2 iyun tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası” qəbul edilmiş və 27 noyabr tarixli Sərəncamı ilə “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı” təsdiq edilmişdir. Həmçinin, 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilmişdir.

“Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2020-2024-cü illər üçün” Milli Fəaliyyət Planının və BMT Təhlükəsizlik Şurasının “Qadınlar, Sülh və Təhlükəsizlik üzrə 1325 saylı Qətnaməsinin Azərbaycan Respublikasında Tətbiqinə dair 2020-2023-cü illər üçün” Milli Fəaliyyət Planının Nazirlər Kabinetinə imzaya təqdim olunması da Komitə tərəfindən təmin edilmişdir.

Bundan əlavə, ailə və uşaq siyasəti, gender bərabərliyi və qadın hüquqları, beynəlxalq əməkdaşlıq istiqamətində Komitə tərəfindən həyata keçirilən tədbirlər haqqında məlumatları da jurnalımız vasitəsilə əldə edə bilərsiniz.

Dəyərli oxucular, bir daha sizi xalqımızın həyatına əlamətdar tarixi gün kimi yazılan bu Zəfər münasibətilə təbrik edir, Azərbaycanın müxtəlif sahələrdə inkişafı naminə verdiyiniz töhfələrdə hər birinizə uğurlar arzulayıram.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin**
**sədri xanım Bahar Muradova**



# VƏTƏN MÜHARİBƏSİ – ZƏFƏRLƏ QAYIDIŞ

**Qələbə ilə bitən Vətən müharibəsi: Düşməni məhv edən "Dəmir Yumruq" xalqı "Yaşadacaq".**

Sentyabrın 27-dən başlayan İkinci Qarabağ müharibəsi Azərbaycanın 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etməsi, işğala son qoyması ilə nəticələndi. Vətən müharibəsinin hər günü bizim şanlı tariximiz oldu. Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu günbəgün irəli gedir, yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Bu müqəddəs döyüşdə iştirak edən hər bir Azərbaycan əsgərinin, zabitinin bir amalı vardı: işğala, haqsızlığa son qoyulsun, tarixi ədalət zəfər çalsın. Müzəffər ordumuz oktyabrın 4-ü Cəbrayılı, 17-i Füzulini, 20-i Zəngilanı, 25-i Qubadlını və nəhayət noyabrın 8-də Şuşa şəhərini işğaldan azad etdi.

Uğurla həyata keçirilən "Dəmir Yumruq" əməliyyatı nəticəsində Ermənistan sülhə və kapitulyasiya aktını imzalamağa məcbur edildi. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən bəyanat imzalandı. Bəyanatda 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən tam bir atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatların dayandırılması elan edildi. Bu bəyanatın müddəalarına əsasən Ermənistan dekabrın 1-dək işğal etdiyi bütün Azərbaycan torpaqlarını azad etməli, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasını təmin etməlidir. Bəyanatın imzalanmasından sonra noyabrın 20-i Ağdam, 25-i Kəlbəcər, dekabrın 1-i isə Laçın işğaldan azad edildi. Beləcə, bütün Qarabağ azad edildi və "Qarabağ Azərbaycandır!" şüarı həqiqətinə qovuşdu.

Prezident İlham Əliyev hər il sentyabrın 27-nin Anım Günü, noyabrın 8-nin isə Zəfər Bayramı kimi qeyd olunması üçün Sərəncam imzaladı. Prezidentin müvafiq sərəncamlarına əsasən isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq, rəşadət göstərmiş, vəzifə borcunu ləyaqət və vicdanla yerinə yetirmiş, igidlik, mərdlik nümayiş etdirmiş Silahlı Qüvvələrin hərbi qulluqçuları fəxri adlar, orden, medallarla təltif edildilər. General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev ölümündən sonra və ehtiyatda olan baş çavuş İbad Hüseynova "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi. Silahlı Qüvvələrimizin minlərlə hərbi qulluqçusu, onların sırasında bir çoxu ölümündən sonra olmaqla "Vətən müharibəsi Qəhrəmanı" adına layiq görüldü, "Vətən uğrunda" medalı, "Zəfər", "Qarabağ", "Azərbaycan Bayrağı" ordenləri ilə təltif edildi.

Təəssüf ki, müharibə itkisiz olmur və azadlıq qurbanlar tələb edir. Azərbaycanın mərd oğulları

torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda canını fəda edərək şəhidlik zirvəsinə yüksəldilər, adlarını xalqın yaddaşına əbədi qəhrəman kimi həkk etdilər, milyonlarla insanın sevgisini, rəğbətini qazandılar. Onların sırasında atası 1-ci Qarabağ müharibəsi şəhidi olan hərbi tibb qulluqçusu Arəstə Baxışova da var.

Bu Böyük Vətən Müharibəsində Silahlı Qüvvələrimizin 2783 hərbi qulluqçusu həlak oldu və onların əziz xatirəsi dekabrın 4-ü saat 12-də 1 dəqiqəlik sükutla yad edildi. Hazırda itkin düşmüş hesab olunan 100 nəfərdən artıq hərbi qulluqçumuzun tapılması üçün zəruri tədbirlər görülür, 1245 yaralımız isə tibb müəssisələrində müalicə alır.

Yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə Prezident İlham Əliyevin 8 dekabr tarixli Fərmanına əsasən Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tabeçiliyində “YAŞAT” Fondu yaradıldı. Fond şəhid ailələri və qazilərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi, onlara maliyyə yardımlarının göstərilməsi və digər tədbirlərin həyata keçirilməsi məqsədilə yaradılıb.

Dekabrın 10-da Vətən müharibəsində qazandığımız Böyük Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, bu ədalət mübarizəsində ən böyük dəstəkçimiz olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan da Zəfər paradında iştirak etdilər. Özünə azərbaycanlı deyən hər kəsin həmin gün sevincinin, qürur və fəxarət hissinin həddi-hüdudu yox idi. Hamının gözündə sevinc göz yaşları, ürəyində Vətəninə, rəhbərinə, Ordusuna, ölümsüz qəhrəmanlarına sonsuz məhəbbət və sayğı var idi.

Azadlıq meydanında keçirilən Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyət iştirak etdi, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, hərbi gəmi və katerlər, eləcə də Ordumuzun darmadağın etdiyi, ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi. Bu parad Azərbaycanın timsalında ədalətin bərqərar olmasının nümayişi idi.

Dövlət başçısı İlham Əliyevin göstərişi ilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində dekabrın 14-də 14 həmvətənimiz erməni əsirliyindən və girovluğundan azad edilərək Bakıya gətirildi. Onlar hazırda dövlətimiz tərəfindən hərtərəfli diqqət, qayğı ilə əhatə edilməklə müayinə və müalicə olunur.

Qeyd olunanlarla yanaşı “2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının



ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 noyabr tarixli 2292 nömrəli Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən təxirə salınmadan iş aparılır. Mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektləri, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın dövlət vəsaiti hesabına aradan qaldırılması istiqamətində işlər görülür, müvafiq təkliflər hazırlanır.

Göründüyü kimi, müharibədən öncə tam qüvvəsi ilə mübarizə aparıldığı kimi, ondan sonra da ən kiçik detalına qədər hər bir məqam nəzərə alınaraq lazımi tədbirlər ardıcıl olaraq həyata keçirilir. Görülən işlər işğaldan azad edilmiş bütün ərazilərdə əvvəlkindən də yaraşıqlı, müasir şəhər, qəsəbə və kəndlər salınacağına, dağıdılmış bütün obyektlərin bərpa ediləcəyinə, orada əvvəlkindən də gözəl həyat yaşanacağına, zərərçəkmiş hər bir vətəndaşımızın ehtiyaclarının təmin olacağına, evlərdən xoşbəxtlik dolu sevinc sədaları eşidiləcəyinə böyük inam yaradır.

**Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Yaşasın məğrur, qalib, bütöv Azərbaycan!**



















# ERMƏNİ RİYAKARLIĞI – HƏDƏF MÜLKİ ƏHALİ

İkinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunması uğrunda apardığımız haqlı mübarizədə döyüş meydanında qəhrəman Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən Ermənistan hərbi siyasi rəhbərliyi dinc Azərbaycan əhalisini hədəf seçərək qadağan olunmuş silahlarla qətlə yetirdilər, hərbi təxribatlara əl ataraq əhalinin sıx məskunlaşdığı əraziləri qəsdən atəşə tutdular.

Ermənistan tərəfindən Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Mingəçevir, Xızı, Abşeron, Qəbələ, Kürdəmir və Siyəzən rayonlarına edilən hücumlar zamanı mülki əhaliyə qarşı terror aktları törədilmişdir ki, bu da insan hüquqlarının birbaşa pozulmasıdır. Bu hərbi təcavüz nəticəsində yaralanan və qətlə yetirilən mülki əhali arasında xüsusilə qadın və uşaqların məqsədyönlü şəkildə hədəfə alınması erməni vandalizmini bir daha dünya ictimaiyyətinə nümayiş etdirdi. Terror hadisələri zamanı 12 uşaq, 27 qadın olmaqla 100 nəfər mülki vətəndaş həlak olmuş, 50 uşaq və 101 qadın olmaqla 416 nəfər yaralanmışdır. Terror nəticəsində bütün bir ailənin məhv edilməsi, uşaqların hər iki valideynini itirməsi ermənilər tərəfindən tarixən törədilən qətliamların və insanlığa sığmayan antihumanist əməllərin əsas təzahürüdür.

Dinc əhaliyə yönələn terror zamanı insanlar öz təsərrüfatlarında məişət işləri ilə məşğul olduğu vaxt atəşə məruz qaldı, məcburi köçkün və əlilliyi olan şəxslərin məskunlaşdığı çoxmənzilli yaşayış binaları qəsdən hədəf seçilərək yararsız vəziyyətə salındı, uşaq bağçaları, məktəblər, xəstəxanalar, təcili tibbi yardım maşınları, dövlət qurumlarının yerləşdiyi inzibati binalar, qəbiristanlıqlar atəşə tutularaq insanların həyatına qəsd edildi. 4186 ev, 548 mülki obyekt, 135 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşdü. Bu baş verən hadisələr onu göstərir ki, Ermənistanın siyasi davranışında heç nə dəyişməyib, əksinə onlar təcavüzkar və amansız əməllərini həyata keçirməkdə davam edirlər. Bütün bunlar Azərbaycanın illərdir nəinki öz ərazi bütövlüyü uğrunda, eyni zamanda erməni terrorizmi ilə mübarizə apardığını deməyə əsas verir.

Mərmi və raket partlayışları, artilleriya atəşləri, xüsusən də bu hadisələrin insanlar yatarkən gecə vaxtı baş verməsi dinc əhalidə, ələlxüsus dünyanı hələ yeni-yeni dərk etməyə başlamış uşaqlarda psixoloji narahatlıqların yaşanmasına və psixoloji cəhətdən gərginlik keçirmələrinə səbəb olmuşdur. Bu hadisələrin şahidi olmuş uşaqların, körpələrin psixoloji vəziyyətlərinin qiymətləndirilməsi, onlarla davamlı işin aparılması, reinteqrasiyası istiqamətində görülən işlərin gücləndirilməsi və hər ehtiyaclarının qarşılanması qarşımızda duran əsas vəzifə və öhdəliklərdir.

Bütün bu cinayətləri törədən Ermənistan tərəfi azərbaycanlı uşaqları qətlə yetirməklə yanaşı, həm də uşaqları Ermənistan ordusuna cəlb etməklə də BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası və "Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair" Fakultativ Protokolunun, "Müharibə zamanı mülki əhalinin müdafiəsi" haqqında Cenevrə Konvensiyasının, BMT-nin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyasının, BMT-nin "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyasının müddəalarını kobud şəkildə pozaraq beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamasını bir daha nümayiş etdirmişdir.

Bu proseslərin baş verdiyi bir zamanda Ermənistanın terror cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq, onların layiqli cavab almalarını təmin etmək məqsədilə Azərbaycan hökuməti tərəfindən beynəlxalq təşkilatlara ünvanlanan müraciətlərə baxmayaraq, eyni zamanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin xüsusilə qadın və uşaqların müharibənin hədəfi seçildiyini və bunun qəbuledilməz olduğunu vurğulayan bir sıra bəyanatlar yaymasına, o cümlədən, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə mətbuat konfranslarının keçirilməsinə baxmayaraq, bir sıra dünya dövlətləri və beynəlxalq təşkilatlar susqunluq nümayiş etdirdilər.

Beynəlxalq aləmin erməni terrorizminə göz yumması, uşaq və qadınların qətlinə biganə qalması bəşəriyyətə, insanlığa, demokratiyaya, ilk növbədə insan hüquq və azadlıqlarına qarşı ən böyük hörmətsizlikdir. Bütün yaşanan bu hadisələr dünyada haqqın-ədalətin bərqərar olacağına insanların inamını itirdiyi halda Azərbaycan öz gücü hesabına qələbə çaldı və tarixi ədaləti bərpa etdiyini dünyaya sərgilədi. Ölkəmizin zəfər çalması həm güclü ordumuz, həm səriştəli Ali Baş Komandanımız, həm xalqımızın birliyi, həm də bunlarla yanaşı, haqq, ədalət uğrunda müharibə aparmağımız nəticəsində oldu.



Orxan İsmayılzada
16 yaş
Tərtər şəhəri,
Azərbaycan



Aysu İsgəndərova
7 yaş
Bərdə şəhəri,
Azərbaycan



Şəhriyar Qurbanov
13 yaş
Naftalan şəhəri,
Azərbaycan



Fidan Qurbanova
14 yaş
Naftalan şəhəri,
Azərbaycan



Arthur Mayakov
13 yaş
Gəncə şəhəri,
Azərbaycan



Fərid İskəndərov
14 yaş
Ağcabədi şəhəri,
Azərbaycan



Şahmali Rəhimov
16 yaş
Bərdə şəhəri,
Azərbaycan



Orxan Xəlili
11 yaş
Gəncə şəhəri,
Azərbaycan



Məryəm Xəlili
10 yaş
Gəncə şəhəri,
Azərbaycan



Nigar Əsgərova
15 yaş
Gəncə şəhəri,
Azərbaycan



Nəzrin Əsgərova
6 yaş
Gəncə şəhəri,
Azərbaycan



Mədinə Şahnəzərli
1 yaş
Gəncə şəhəri,
Azərbaycan

# Erməni terrorunun günahsız qurbanları



*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Vətən müharibəsi dövründə Ermənistanın təxribat əməlləri ilə əlaqədar bir neçə dəfə dünya təşkilatlarına bəyanatlar ünvanlamışdır. Bəyanatların mətnini təqdim edirik.*

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ermənistan silahlı qüvvələrinin həyata keçirdiyi hərbi təxribatlar zamanı qadın və uşaqların hüquqlarını pozması və qətlə yetirməsinə dair**

**BƏYANATI**

Məlum olduğu kimi, 27 sentyabr 2020-ci il, saat 06:00-dan başlayaraq Ermənistanın Azərbaycana qarşı növbəti təxribatı baş vermişdir.

Əvvəllər də mövcud atəşkəs rejimini dəfələrlə pozan Ermənistan silahlı birləşmələri bu dəfə bütün təmas xətti boyu hücuma keçərək Azərbaycan mövqelərini, yaşayış məntəqələrini intensiv şəkildə müxtəlif növ silah və artilleriya qurğuları ilə atəşə tutmaqda, mülki və hərbi obyektlərə ciddi ziyan vurmaqda davam edir.

Bu hərbi təcavüz nəticəsində yaralanan və qətlə yetirilən mülki əhali arasında xüsusilə qadın və uşaqların məqsədyönlü şəkildə hədəfə alınması erməni vandalizmini bir daha dünya ictimaiyyətinə nümayiş etdirməkdədir.

Dünən Ermənistan silahlı qüvvələrinin dinc əhalini atəşə tutması nəticəsində Naftalan rayonunun Qaşaltı kəndinin sakini 1951-ci il təvəllüdlü Qurbanov Elbrus və onun dörd ailə üzvü, 1956-cı il təvəllüdlü Qurbanova Şəfayət, 2006-cı il təvəllüdlü Qurbanova Fidan, 2007-ci il təvəllüdlü Qurbanov Şəhriyar və 1981-ci il təvəllüdlü Əmirova Afaq həlak olmuş, ümumilikdə 27 nəfər mülki şəxs yaralanmışdır.

Bu hadisələr Ermənistanın cari ilin 12 iyul tarixində dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi zorakı və təcavüzkar əməllərinin davamı kimi qiymətləndirilir.

Ermənistan tərəfinin beynəlxalq sənədlərdən irəli gələn öhdəlikləri yerinə yetirməyərək, "Müharibə zamanı mülki əhalinin müdafiəsi" haqqında Cenevrə Konvensiyasının, BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasının, ümumilikdə insan hüquqları sahəsində digər mühüm sənədlərin müvafiq müddəalarına əməl etməməsi növbəti dəfə beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozduğunu və müharibə cinayətlərini davam etdirdiyini sübut edir.

Azərbaycan Silahlı Qüvvələri Ermənistanın təcavüz aktına cavab olaraq əks-hücum əməliyyatlarını həyata keçirərək, mülki əhaliyə, qadınlara və uşaqlara qarşı müharibə aparmadığını bəyan edir.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq, dünya ictimaiyyətini, eləcə də aidiyyəti beynəlxalq təşkilatları, BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirməyən, BMT Baş Assambleyasının 2006 və 2008-ci illərdə qəbul olunmuş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamələrinə, BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasına, BMT Təhlükəsizlik Şurasının "Silahlı münaqişələr zamanı uşaqların qorunması tədbirləri haqqında" 2427 qətnaməsinə məhəl qoymayan Ermənistanın Azərbaycan ərazisində törətdiyi cinayətlərə seyrçi qalmamağa, eyni zamanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində mülki əhalinin, xüsusən də qadın və uşaqların pozulmuş hüquq və azadlıqlarının bərpası istiqamətində üzərlərinə düşən zəruri addımları atmağa və müvafiq tədbirlər görməyə çağırırıq.

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın cəbhə bölgəsindən kənarda yerləşən Gəncə şəhərini müxtəlif növ silahlardan atəşə tutması nəticəsində qadın və uşaqların həlak olması və xəsarət alması hallarına dair BƏYANATI

11 oktyabr 2020-ci il tarixdə gecə saat 02 radələrindən etibarən cəbhə zonasından kənarda yerləşən Gəncə şəhərinə təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya qurğuları və raketlərdən açılan atəş nəticəsində mülki əhalinin qəsdən hədəf seçilərək qətlə yetirilməsi davam etməkdədir.

10 oktyabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən tərəflər arasında humanitar məqsədləri əks etdirən atəşkəs rejiminin elan olunmasına baxmayaraq Ermənistan əhalinin sıx məskunlaşdığı Gəncə şəhərinin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binasını raket atəşinə tutmuşdur. Erməni terroru nəticəsində qadın və uşaq daxil olmaqla 9 dinc sakin qətlə yetirilmiş, 34 nəfər yaralanmışdır. Eyni zamanda dağıntılar altında hələ də xilas edilməsini gözləyən günahsız insanlar qalmaqdadır. Gəncədə baş vermiş bu terror hadisəsi erməni siyasi-rəhbərliyinin vandal əməllərinin növbəti təzahürüdür. Təəssüflər olsun ki, Ermənistanın hərbi və insanlığa sığmayan cinayətləri hələ də cəzasız qalmaqdadır.

Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə azərbaycanlılara qarşı baş verən erməni təxribatı vəhşiliyin, vandal davranışın və uşaq qətllərinin bariz nümunəsidir. Beynəlxalq humanitar hüququn norma və prinsiplərinə, eləcə də atəşkəsə məhəl qoymayan Ermənistanın bu qeyri-insani davranışlarına lazımi qiymət verilməli, günahsız insanların qanı yerdə qalmamalı və terrorçular layiqli cəzalarını almalıdırlar.

Bundan əlavə, Ermənistanın Cənubi Qafqazda ən böyük Azərbaycan İstilik Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən, region üçün strateji əhəmiyyətli iri sənaye şəhəri Mingəçevirə atdığı raketlərin Ordumuzun hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilməsi baş verməsəydi, bu hadisənin ciddi fəlakətlə nəticələnməsi qaçınılmaz olardı.

Biz, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq beynəlxalq səviyyədə insan hüquqları, xüsusilə qadın və uşaqların hüquqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatları və bütövlükdə dünya ictimaiyyətini BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirməyən, BMT Baş Assambleyasının 2006 və 2008-ci illərdə qəbul olunmuş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamələrinə, BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasına, BMT Təhlükəsizlik Şurasının "Silahlı münaqişələr zamanı uşaqların qorunması tədbirləri haqqında" 2427 qətnaməsinə məhəl qoymayan Ermənistan tərəfinin Azərbaycanın mülki əhalisini məqsədli şəkildə hədəf seçərək canlarına qəsd edilməsi ilə nəticələnən müharibə cinayətlərinə son qoyması üçün qətiyyətli addımlar atmağa və bu terrorçu əməllərinin qarşısının alınması istiqamətində lazımlı qərarlar qəbul etməyə çağırır, təcavüzkara layiqli şəkildə münasibət bildirmələrini tələb edirik.

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təcavüzkar Ermənistanın Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni növbəti dəfə raket atəşinə tutması nəticəsində zərər çəkən və həyatını itirən mülki vətəndaşlarla bağlı BƏYANATI

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc sakinlərini məqsədyönlü şəkildə hədəf seçərək mülki əhalini və yaşayış massivlərini növbəti dəfə raket atəşinə tutması bəşəriyyət əleyhinə yönəlmiş cinayətdir.

17 oktyabr 2020-ci il tarixində, gecə saatlarında cəbhə bölgəsindən və münaqişə zonasından kənar yerləşən Gəncə şəhəri sayca üçüncü dəfə terrora məruz qalaraq ballistik raket atəşinə tutuldu. Bu terror nəticəsində 3 azyaşlı uşaq, 4 qadın olmaqla 13 nəfər həyatını itirdi, 5-i azyaşlı və 20-i qadın olmaqla 48 nəfər ağır şəkildə yaralandı, 2 uşaq itkin düşdü. Qəhrəman Azərbaycan ordusunun qarşısında dayana bilməyən Ermənistan rəhbərliyinin terror əməllərinin qurbanı olan əhali arasında qadın və uşaqların yer alması ermənilər tərəfindən tarixən törədilən qətliamların növbəti təzahürüdür.

27 sentyabr 2020-ci il tarixindən bu günə kimi Ermənistan silahlı qüvvələrinin təmas xətti boyunca Azərbaycan mövqelərini, eləcə də münaqişə zonasına daxil olmayan Azərbaycan şəhərlərini, yerli əhalinin məskunlaşdığı yaşayış məntəqələrini və mülki obyektləri müxtəlif növ silahlarla intensiv şəkildə atəşə tutması nəticəsində ümumilikdə, 60 mülki şəxs həlak olmuş, 270 dinc sakin yaralanmışdır. 1704 yaşayış evi, 327 mülki obyekt və 90 çoxmərtəbəli yaşayış binası yararsız vəziyyətə düşmüşdür.

Bütün dünyanın gözü önündə baş verən, insanlığa qarşı barbarlıq və vəhşiliyi açıq şəkildə əks etdirən bu hadisələrə və azərbaycanlılara qarşı yönəlmiş müharibə cinayətinə dünya birliyinin hələ də səssiz qalması Azərbaycan xalqı olaraq bizi narahat edir. Beynəlxalq humanitar hüququn norma və prinsiplərini, o cümlədən elan olunmuş humanitar atəşkəsi kobud şəkildə pozan Ermənistan rəhbərliyi törətdiyi cinayətlərə görə tam məsuliyyət daşıyaraq layiqli cəzasını almalı, beynəlxalq ictimaiyyət qarşısında cavab verməlidir.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq bu müharibədən əziyyət çəkən ailələrin, uşaq və qadınların vəziyyətini xüsusi diqqət mərkəzində saxlamaqla, digər ölkələrdə fəaliyyət göstərən həmkar dövlət qurumlarına, eləcə də aidiyyəti beynəlxalq təşkilatlara üzümüzü tutaraq bu müharibə cinayətinin nəticələrinə biganə qalmamağa çağırırıq. Bütün dünya ictimaiyyətini BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirməyən, BMT Baş Assambleyasının 2006 və 2008-ci illərdə qəbul olunmuş “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı qətnamələrinə, BMT-nin “Uşaq Hüquqları haqqında” Konvensiyasına, BMT Təhlükəsizlik Şurasının “Silahlı münaqişələr zamanı uşaqların qorunması tədbirləri haqqında” 2427 qətnaməsinə məhəl qoymayan Ermənistanın Azərbaycanın mülki əhalisini namərdcəsinə hədəf seçməsinə son qoyulması istiqamətində təxirəsalınmaz addımlar atmağa çağırır, zərərçəkən ailələrin, hüquqları pozulan qadınların, azyaşlı körpələrin qətlinə münasibət bildirmələrini tələb edirik.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin BMT-nin Uşaq Fonduna müraciəti**

Ermənistan silahlı qüvvələri elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini növbəti dəfə pozaraq 27 oktyabr 2020-ci il tarixində günorta saatlarından başlayaraq Goranboy və Bərdə rayonlarını müxtəlif istiqamətlərdən intensiv atəşə məruz qoymuşdur. Ermənistan silahlı qüvvələrinin Bərdə rayonunun Qarayusifli kəndini müxtəlif istiqamətlərdən ağır artilleriya atəşinə tutması nəticəsində 4 nəfər dinc sakin həyatını itirmiş,  14 nəfər yaralanmışdır. Qətlə yetirilənlərdən 1-i, xəsarət alanlardan 4-ü azyaşlıdır.

2020-ci il sentyabrın 27-dən başlayaraq həyata keçirilən təxribatlar, döyüş bölgələrindən uzaqda yerləşən şəhər və qəsəbələrimizdə yaşayan dinc əhaliyə qarşı tətbiq edilən hərbi cinayətlər nəticəsində 36 uşaq müxtəlif dərəcəli bədən xəsarətləri almış, 11 uşaq qətlə yetirilmişdir. Bu, Ermənistan hərbi-siyasi rəhbərliyinin terrorçu əməllərinin növbəti təzahürüdür.

Ermənistanın işğalçı siyasi əməlləri bununla bitmir. Belə ki, döyüş bölgəsində ordusunun məğlubiyyətə məruz qaldığını görən Ermənistan beynəlxalq humanitar hüququn ən elementar normalarına məhəl qoymayaraq uşaqları hərbi əməliyyatlara cəlb edir.

Bununla Ermənistan hökuməti “Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair” IV Cenevrə Konvensiyasını, Birləşmiş Millətlər Təşkilatının “Ümumdünya İnsan Haqları Bəyannaməsi”ni, BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasını və Konvensiyanın Uşaqların silahlı münaqişələrdə iştirakı ilə əlaqədar Fakültativ Protokolu, “Vətəndaş və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktı, “Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” Konvensiyanı, “Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair” Konvensiyanı, eləcə də “Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi” Bəyannaməsini kobud surətdə pozur.

Yuxarıda qeyd edilən məqamlar Ermənistanın beynəlxalq hüququn prinsiplərinə, sənədlərdən irəli gələn öhdəliklərə nə dərəcədə laqeyd və etinasız yanaşdığının göstəricisidir. 30 ildir davam edən münaqişə şəraitində Ermənistanın dəfələrlə dinc əhalinin, xüsusən də uşaqların qəsdinə yönələn amansız cinayət əməllərinə hələ də heç bir beynəlxalq hüquqi sanksiyanın tətbiq edilməməsi törətdikləri cinayətlərin daha ağır hal alması ilə nəticələnir. Bunları nəzərə alaraq, biz bütün beynəlxalq təşkilatları Ermənistan tərəfindən törədilən qanunsuz əməllərə, beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan hərəkətlərinə lazımi hüquqi qiymət verməyə çağırırıq.

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisini hədəfə alması ilə əlaqədar keçirdiyi mətbuat konfransı

Oktyabrın 2-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində Ermənistanın hərbi təxribatlar törədərək mülki əhalini, xüsusilə qadın və uşaqları məqsədyönlü şəkildə hədəfə alaraq, hüquqlarını pozması və qətlə yetirməsi ilə əlaqədar mətbuat konfransı keçirilmişdir.

Konfransda çıxış edən Komitə sədri Bahar Muradova Ermənistan silahlı qüvvələrinin təmas xətti boyunca Azərbaycan mövqelərini artilleriya qurğuları və müxtəlif növ silahlarla intensiv şəkildə atəşə



tutması və törətdiyi təxribatçı əməllərinin qurbanının daha çox mülki əhali olması, xüsusilə, insanların məskunlaşdığı yaşayış məntəqələrinin açıq şəkildə hədəf seçilməsinin erməni xislətini bir daha ortaya qoyduğunu qeyd etmişdir. O, məcburi köçkün və əlilliyi olan şəxslərin məskunlaşdığı çoxmənzilli yaşayış binalarının yararsız vəziyyətə düşdüyünü, təsərrüfat təyinatlı və mülki obyektlərə xeyli miqdarda ziyan dəydiyini, dövlət qurumlarının inzibati binalarının, rayon məhkəmələrinin yerləşdiyi binaların, uşaq bağçaları, məktəblər, xəstəxanalar, təcili tibbi yardım maşınlarının, media işçilərinin Ermənistan tərəfindən hədəflənərək, insan tələfatı və dağıntılarla nəticələndiyini diqqətə çatdırmışdır. Bildirilmişdir ki, erməni təxribatı nəticəsində Ağdamda ata və oğulun öz mənzillərində qəfildən evlərinə top mərmisinin düşməsi nəticəsində həlak olması, Tərtər yaşayış kompleksində 2 qardaşın yaralanması, qəsəbənin tamamilə yararsız hala salınması, Naftalan şəhərində bir ailənin yer üzündən silinməsi, bu ailə üzvləri arasında 2 məktəblinin olması ermənilərin amansız əməllərinin bariz nümunəsi olmuşdur. Azərbaycan hökumətinin uzun illərdir torpağından, evindən didərgin düşmüş çətin vəziyyətdə yaşayan vətəndaşlarının həyat şəraitinin yaxşılaşdırılması, hər cür imkanlarla təmin edilməsi üçün hər zaman lazımi addımları atdığı halda, Ermənistanın yenidən bu insanları hədəfə alması işğal altında olan ərazilərə qayıtmalı olan əhalini qorxu altında saxlamaq və tamamilə məhv etmək niyyətlərindən xəbər verir.

Bahar Muradova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin adından beynəlxalq səviyyədə insan hüquqları, xüsusilə qadın və uşaqların müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlara səslənərək, təcavüzkara layiqli şəkildə münasibət bildirmələrinin vacibliyini qeyd etmişdir. Bildirmişdir ki, Ermənistan mülki obyektləri, bağçaları, məktəbləri, uşaqların gəzdiyi küçələri, oyun oynadığı parkları hədəf almaqla onların gələcəyini hədəf almış olur. Əgər dünyanın hansısa nöqtəsində bir uşaq ağlayırsa, bu, bütün dünya üçün utancdır. Biz gözləyirik ki, digər dünya ölkələri də öz haqlarını, öz ölkələrini gələcəkdə belə təcavüzdən sığortalamaq və belə hadisələrlə üzləşmək təhlükəsindən xilas etməyə çalışsınlar.



Erməni analarına səslənən Komitəsi sədri bildirmişdir ki, onlar övladlarının təcavüzkar, terrorçu orduda döyüşməsinin qarşısını ala və buna etiraz edə bilərlər. O, Ermənistanda itirdikləri əsgərlərin yerini doldurmaq üçün qadınlardan ibarət batalyonun yaradılması qərarının verildiyini qeyd edərək, düşmənin nə qədər acınacaqlı bir durumda olduğunu vurğulamışdır: “Bu gün Azərbaycan qadını Vətəninə qanı, canı hesabına xidmət edən övlad böyüdür. Onlar ehtiyac olan xəstəxanalarda yaralı oğullarımıza qulluq edirlər. Erməni analar öz oğullarını xilas etmək istəyirlərsə, ilk növbədə Anna Akopyanın hərəkətlərinə, avantürasına etiraz etməlidirlər” – deyə B.Muradova bir daha qeyd etmişdir.

# Ailə siyasəti istiqamətində keçirilən tədbirlər

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2020-ci il ərzində ailə siyasətinin həyata keçirilməsi, ailə məsələlərinin həlli və ailələrlə müvafiq işlərin aparılması, ailədaxili münasibətlərin tənzimlənməsi, koronavirus pandemiyasının ailələrə təsirinin azaldılması, uzunömürlü və möhkəm ailələrin təbliği və digər istiqamətlərdə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.




Komitənin təşəbbüsü ilə Səhiyyə Nazirliyi və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı şəhərində yerləşən təhsil müəssisələrində gənc və yeniyetmələr arasında sağlam həyat tərzinin təbliği, gənclərin ailə həyatına hazırlığı, reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində maarifləndirilməsi məqsədi ilə müvafiq sahə üzrə ekspertlərin iştirakı ilə tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı olaraq fevralın 21-də Bakı İdarəetmə və Texnologiya Kollecinin tələbələri üçün, “Reproduktiv sağlamlıq və ailə planlaşdırılması: mövcud problemlər və onların həlli” mövzusunda, fevralın 28-də Azərbaycan Rəssamlıq Akademiyası nəzdində olan İncəsənət Kollecinin qız tələbələri üçün “Qeyri-infeksion xəstəliklərin profilaktikası. Süd vəzi xərçəngi və onun profilaktikası” adlı tədbir keçirilmişdir. Tədbirlər çərçivəsində ailə dəyərləri, ailənin idarə olunması, ailədaxili münasibətlərin tənzimlənməsinin araşdırılması məqsədi ilə tələbələr arasında sorğu keçirilmişdir. Noyabrın 25-də Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Azərbaycan Maliyyə-İqtisad kollecinin tələbələri üçün “Pandemiya dövründə sağlam həyat tərzinin vacibliyi” adlı onlayn tədbir keçirilmişdir. Tədbir zamanı sağlam qidalanmanın, şəxsi gigiyenanın vacibliyi, ziyanlı vərdişlərin insan sağlamlığına olan mənfi təsirləri, koronavirus infeksiyasından qorunmaq üçün xüsusi vasitələrdən istifadə etmənin vacibliyi məsələləri qeyd edilmişdir. Dekabrın 1-də Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbələri üçün “Ümumdünya QİÇS-lə Mübarizə Günü”nə həsr olunmuş “Sağlam həyat tərzi. QİÇS-dən qorunma yolları” adlı, dekabrın 11-də Aviasiya və Avtomobil Nəqliyyatı üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi 6 nömrəli Bakı Peşə Məktəbinin tələbələri üçün “Qan xəstəlikləri (talassemiya və hemofiliya). Qohum evliliyi” adlı onlayn təlimlər keçirilmişdir.



Pandemiya dövründə Prezident İlham Əliyevin yeni koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə çərçivəsində elan etdiyi “Biz birlikdə güclüyük!” şüarına dəstək olmaq, həmçinin xüsusi karantin rejimi ilə əlaqədar ailələri ev şəraitində asudə vaxtını səmərəli və faydalı keçirməyə stimullaşdırmaq məqsədilə Komitə tərəfindən 6-30 aprel tarixlərində “Ailəm” müsabiqəsi keçirilmişdir. Müsabiqəyə ümumilikdə 23 ailə tərəfindən 26 video və 17 foto material daxil olmuşdur. Eyni zamanda ailələri ev şəraitində asudə vaxtını səmərəli keçirməyə stimullaşdırmaq və ailəliklə mütaliə ənənəsini təbliğ etmək məqsədilə Komitə əməkdaşlarının ailələrinin iştirakı ilə “Ailəliklə mütaliə” layihəsi çərçivəsində videoçarx hazırlanmışdır.



BMT-nin Baş Assambleyasının 20 sentyabr 1993-cü il qətnaməsinə müvafiq olaraq 15 may tarixi bütün dünyada “Beynəlxalq Ailə günü” kimi qeyd olunur. 2008-ci ildən etibarən hər il may ayında Komitə tərəfindən “Beynəlxalq Ailə günü” münasibətilə tədbirlər həyata keçirilir. Bu münasibətlə Komitənin təşkilatçılığı ilə mayın 15-də **“Azərbaycan ailəsi pandemiya və post-pandemiya dövründə: sosial-mədəni, psixoloji məqamlar” adlı video-konfrans** keçirilmişdir. Qoşqar Məhərrəmovun moderatorluğu ilə keçirilən video-konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti Fuad Məmmədov çıxış etmişdir. Komitə sədri Bahar Muradova hər kəsi “Beynəlxalq Ailə Günü” münasibəti ilə təbrik edərək, Azərbaycanın beynəlxalq aləmin bir üzvü olaraq bu ənənəyə qoşulduğunu və bu məqsədlə 2008-ci ildən etibarən həyata keçirilən genişmiqyaslı layihələrini, xüsusilə də regionları əhatə edən və təqribən hər il 80-nə yaxın ailənin iştirakı ilə baş tutan “Ailə Bayramları”nın keçirilməsini xüsusi vurğulamışdır. O, pandemiya və post-pandemiya dövrünün çətinliklərinin aradan qaldırılması istiqamətində görülən işlər və atılacaq addımlar ətrafında müzakirələrin aparılmasının vacibliyinə toxunmuşdur.

Komitə tərəfindən karantin və sosial izolyasiya müddətində ailələrdə yaranan psixoloji problemlərin həllinə köməklik göstərmək məqsədilə aprelin 22-də psixoloqların iştirakı ilə “Pandemiya dövründə ailələrdə yaranan psixoloji problemlər və onların həlli yolları” mövzusunda onlayn görüş keçirilmişdir. Onlayn görüşdən ümumilikdə 2600 insan faydalanmışdır.



Nümunəvi ailə modellərinin cəmiyyətdə tanıdılması və belə ailələrdəki münasibətlərdə uzunömürlülüyün sirri, övlad yetişdirmədə tərbiyə metodlarının, cəmiyyət üzvləri arasında həmrəyliyin möhkəmlənməsinə təsir göstərən ailədaxili birliyin təbliğ edilməsi məqsədilə “Ailələrimizi tanıyaq” layihəsinə start verilmişdir. Layihə çərçivəsində cəmiyyətdə hörmət qazanan, faşizm üzərində qələbənin 75 illik yubileyi ərəfəsində ilk olaraq Böyük Vətən Müharibəsi iştirakçısı olmuş, Laçın rayonundan məcburi köçkün və hazırda Şəkidə məskunlaşan Əhmədovlar ailəsi ilə və Lənkəran şəhər sakinləri, 64 il birgə ömür sürmüş Məmmədovlar ailəsi ilə görüş keçirilmişdir. Komitənin rəsmi “Facebook” sosial şəbəkəsində yerləşdirilən və böyük marağa səbəb olan görüşün videoyazısına ümumilikdə 4000-ə yaxın baxış olmuşdur. Layihə çərçivəsində nümunəvi ailələrin tanıdılması davam etməkdədir.

Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında Sərəncamının icrası istiqamətində Komitə tərəfindən “Ailə Könüllüləri” adlı layihə həyata keçirilir. Yaradılan “Ailə Könüllüləri ”nin fəaliyyətinin əsas məqsədi müxtəlif ünsiyyət vasitələri və əlaqə mexanizmlərindən istifadə etməklə milli-mənəvi dəyərlərimizin, sağlam həyat tərzinin, möhkəm ailə modelinin təbliği, bilik və təcrübələrin ötürülməsi yolu ilə müsbət həyat nümunələrinin və hekayələrinin insanlar arasında yayılması, həmçinin ailələrin asudə vaxtlarının səmərəli təşkilinə töhfə verməkdir. Layihənin hədəfləri sırasında silahlı münaqişələr, təbii fəlakətlər, yanğınlar, epidemiyalar və digər fövqəladə hallar nəticəsində zərər çəkmiş şəxslərə dəstək göstərilməsi də mühüm yer tutur. “Ailə Könüllüləri”nin fəaliyyətinin məqsədləri sırasına həmçinin həssas qruplara daxil, aztəminatlı, o cümlədən gənc ailələrin qarşılaşdıqları çətinliklərin və problemlərin həlli üçün müvafiq xidmətlərə yönləndirmək, habelə sosial,



psixoloji və mənəvi dəstək göstərmək də daxildir. Layihəyə Azərbaycanın müxtəlif regionlarından 43 ailə könüllü olaraq qoşulmuşdur. Layihə çərçivəsində ailə könüllüləri tərəfindən həssas qruplara daxil olan 22 ailəyə (şəhid ailələri, aztəminatlı, təmas xəttində yaşayan, ata himayəsindən məhrum olan və anası ilə tək yaşayan uşaqlar, tənha, kimsəsiz yaşayan yaşlı insanlar) ziyarət edilmiş, müxtəlif mövzular ətrafında müzakirələr aparılmış və onlara mənəvi və digər dəstək göstərilmişdir. Uşaqlar üçün təmənnasız ingilis dilinin tədrisi xidmətləri, toxuculuq və rəsm dərsləri təşkil olunmuşdur. Ailə könüllüləri tərəfindən qəhrəmanlar haqqında videoçarx hazırlanmışdır. Layihə çərçivəsində sentyabrın 21-də könüllü ailələrlə onlayn konfrans keçirilmişdir. Konfransda ailələri narahat edən məsələlər müzakirə edilmiş və ailələr tərəfindən maraqlı təkliflər irəli sürülmüşdür.



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə **“Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası“** təsdiq edilmişdir. Qaydanın icrası istiqamətində gənclərin erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələri barədə maarifləndirilməsi işinin daha məqsədyönlü şəkildə aparılması məqsədilə iyulun 13-də aidiyyəti dövlət orqanlarının iştirakı ilə videokonfrans keçirilmişdir. Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri  Azay Quliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov, Gənclər Fondunun icraçı direktorunun müavini Qədir Xəlilov, Səhiyyə Nazirliyinin İctimai və Səhiyyə İslahatlar Mərkəzinin şöbə müdiri Səbinə Babayeva, “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, İçərişəhər “Cümə” məscidinin dini icmasının sədri Hacı Surxay Məmmədli, Milli Televiziya və Radio Şurası Aparatının rəhbəri vəzifəsini icra edən Fazil Novruzov çıxış edərək, mövzu ətrafında fikir və təkliflərini səsləndiriblər. Konfransın yekununda erkən nikah və qohumlar arasında nikahın mənfi nəticələrinə dair işin aparılması və bu istiqamətdə effektiv nəticələrin əldə edilməsi məqsədilə əməkdaşlığın gücləndirilməsi və koordinasiyalı şəkildə fəaliyyətin həyata keçirilməsinin vacibliyi ilə bağlı razılıq əldə olunub.



# Qadın siyasəti və gender bərabərliyi istiqamətində keçirilən tədbirlər

Qadın hüquqlarının müdafiəsi, qadınların idarəetmə və qərarqəbuletmə prosesində təmsilçiliyinin artırılması, bütün sahələrdə gender bərabərliyinin təmin edilməsi istiqamətində 2020-ci il ərzində Komitə tərəfindən genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.





Komitə Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) dəstəyi ilə "Cənubi Qafqazda Yerli İnkişaf üçün Yaxşı İdarəetmə Proqramı" çərçivəsində üç mərhələli layihə həyata keçirmişdir. Layihənin I mərhələsi kimi iyulun 1-də Komitə sədri Bahar Muradovanın rəhbərliyi ilə, millət vəkillərinin, bütün icra hakimiyyəti başçılarının müavinlərinin və bələdiyyə sədrlərinin iştirakı ilə "Yerli özünüidarəetmədə gender bərabərliyi siyasəti" mövzusunda videokonfrans keçirilmişdir. Layihənin 3-28 iyul tarixlərini əhatə edən II mərhələsi respublikanın 67 rayon və şəhərinin gender məsələləri üzrə məsul şəxsləri-İcra Hakimiyyəti başçılarının İctimai-siyasi və humanitar məsələlər üzrə müavinləri, İcra Hakimiyyətlərinin şöbə müdirləri və digər əməkdaşları, bələdiyyə sədrləri, ərazi icra nümayəndələrinin iştirakı ilə "Gender Əlaqələndiriciləri üçün gender məsələlərinin təhlili" adlı onlayn təlimlər keçirilmişdir. Layihənin III mərhələsində respublikanın pilot olaraq seçilmiş 15 rayon və şəhər bələdiyyələrində Gender Komissiyaları yaradılmışdır. Eyni zamanda Komitə və GİZ-in birgə əməkdaşlığı çərçivəsində gender bərabərliyi üzrə məsul şəxslər üçün 2 günlük təlim kursu keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Yerli özünüidarəetmədə gender bərabərliyinin təmin olunması: nailiyyətlər və müsbət təcrübə" mövzusunda onlayn ixtisasartırma kursu keçirilmişdir. İyunun 16-dan 19-dək davam edən onlayn kursa yerli özünüidarəetmə orqanlarından 25 nəfər bələdiyyə sədr və müavinləri cəlb olunmuşdur. Kursun təşkilində əsas məqsəd "Qlobal fövqəladə şəraitdə innovativ dövlət idarəçiliyi texnologiyaları: Azərbaycanın təcrübəsi", "Dövlət qadın siyasəti və yerli özünüidarəetmədə gender bərabərliyi", "Bələdiyyələrin təşkilati fəaliyyətinin əsas aspektləri", "Pandemiya dövrünün gender aspektləri: beynəlxalq və milli təcrübə", "Bələdiyyələrin hüquqlarının müdafiəsi istiqamətində assosiasiyaların rolu" və sair problemlərlə bağlı biliklərin çatdırılması və onlar ilə fikir mübadiləsinin aparılması olmuşdur. Onlayn ixtisasartırma kursunda Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və sədr müavini Sədaqət Qəhrəmanova, İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov, Hüquqi-təminat şöbəsinin müdiri Taliyə İbrahimova, İnformasiya və analitik araşdırmalar şöbəsinin baş məsləhətçisi Aynur Veysəlova, Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının icra katibi Tofiq Həsənov, DİA-nın İnzibati idarəetmə fakültəsinin dekanı, Xatirə Hüseynova mühazirələrlə çıxış etdilər.

Komitə "Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda" İctimai Birliyinin birgə əməkdaşlığı ilə "Dayanıqlı İnkişaf Məqsədlərinin Tətbiqi Vasitəsilə Gender Əsaslı Bələdiyyələrin Təşviqi" layihəsi çərçivəsində son bələdiyyə seçkilərində qadınların əldə etdiyi nailiyyətlərlə bağlı dəyirmi masa keçirmişdir.






Komitə Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin sifarişi ilə GİZ tərəfindən həyata keçirilən “Qafqazda Aztəminatlı Məcburi Köçkün və Yerli Əhalinin İqtisadi və Sosial İnkişafı” (EPİC) layihəsi ilə birgə iyulun 2-də “Gender və erkən nikahlar” mövzusunda onlayn təlim keçirmişdir. Təlimin keçirilməsində məqsəd gender problemləri, erkən nikahlar, onların baş vermə səbəbləri və qarşısının alınması istiqamətində həyata keçirilən işlər, mövcud beynəlxalq və milli qanunverilik aktları, eyni zamanda belə neqativ halların qarşısının alınmasında icma üzvlərinin də iştirakının vacibliyi barədə əhalinin maarifləndirilməsi olmuşdur.



Komitə GİZ-in dəstəyi ilə “Gender məsul şəxslərin vəzifələri və gender məsələlərinin təhlili” mövzusunda onlayn təlimlər keçirmişdir. Təlimlərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fəsəfə İnstitutunun “Müasir siyasətin fəlsəfəsi” şöbəsinin müdiri Rəna Mirzəzadə və Bakı Dövlət Universitetinin Gender və Tətbiqi Psixologiya kafedrasının müəllimi Nigar Səfərova təlimçi qismində çıxış edərək gender məsul şəxslərin çalışdıqları qurumlarda gender bərabərliyinin təmin olunması və gender mədəniyyətinin təbliğ olunması istiqamətində işlərin həyata keçirilməsi və vəzifə təlimatları, gender məsələlərinin təhlili, gender həssas göstəricilər və s. mövzular haqqında iştirakçılara məlumat vermişdir.

Komitə GİZ ilə birgə 2020-ci ildən etibarən Göyçay rayonunda “Kənd qadınlarının mikro sahibkarlığına dəstək” layihəsini həyata keçirir. Layihənin məqsədi kənd qadınlarının istisadi və sosial imkanlarının artırılmasına dəstək göstərməkdir. Layihə çərçivəsində Göyçay rayonunda Qadın Resurs Mərkəzi yaradılmış, qadınların məşğulluğunun təmin olunması və ev təsərrüfatlarının inkişafı məqsədilə 28 qadına fəaliyyət istiqamətlərinə uyğun olaraq maddi-texniki dəstək (mal və materiallar, avadanlıqlar, mebel, aksessuarlar və s.) göstərilmişdir.

2020-ci ilin noyabr-dekabr aylarında layihəyə cəlb olunan qadınların iştirakı ilə Göyçay rayonunda “Gender və insan hüquqları”, “Özünü təqdimetmə bacarıqları” “Liderlik”, “Məişət zorakılığı və erkən nikah”, “Maliyyə savadlılığı”, “Biznesin təşkili və idarə edilməsi” mövzusunda təlimlər keçirilmişdir. Təlimlərin keçirilməsində məqsəd qadınlar arasında şəbəkənin yaradılması, gender, insan hüquqları, özünü təqdim etmə bacarıqları, maliyyə savadlılığı, biznesin təşkili, idarə edilməsi və liderlik haqqında biliklərin artırılması, eyni zamanda onların ictimai fəallığının artırılmasının təmin olunmasıdır.

Noyabrın 24-də “Qadınlar sülh uğrunda” adlı beynəlxalq videokonfrans keçirilmişdir. Konfransda Azərbaycanı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova və “Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti”nin rəhbəri Şəhla İsmayılova təmsil etmişdir. S.Qəhrəmanova ölkəmizdə qadın hüquqları və gender bərabərliyi sahəsində həyata keçirilən tədbirlər haqqında məlumat verərək, BMT-nin Təhlükəsizlik Şurasının “Qadınlar, Sülh və Təhlükəsizlik haqqında 1325 saylı Qətnaməsinin Azərbaycanda tətbiqinə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı” layihəsinin hazırlanaraq hökumətə təqdim edildiyini diqqətə çatdırmışdır.

Komitə ilə GİZ-in əməkdaşlığı çərçivəsində “Ailədə gender bərabərliyi”, “Reproduktiv sağlamlıq”, “Gender bərabərliyi”, “Erkən nikah” mövzularında bukletlər çap olunmuşdur. Eyni zamanda “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunun 20-ci maddəsinə əsasən Komitənin 2019-cu il üzrə fəaliyyəti haqqında məlumat hazırlanmış və çap edilmişdir.

# Uşaq siyasəti istiqamətində keçirilən tədbirlər

Komitə tərəfindən uşaq hüquqlarının müdafiəsi, istedadlı uşaqların cəmiyyətə təqdim edilməsi, uşaqlarla işin aparılması, uşaqların asudə vaxtlarını səmərəli keçirməyə təşviq edilməsi, eyni zamanda COVİD-19 pandemiyasından qorunma üsulları və bununla əlaqədar ölkədə elan olunan xüsusi karantin rejimi qaydalarına riayət edilməsi istiqamətində mühüm işlər görülmüş və maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Uşaqların cəmiyyətdə üzləşə biləcəyi zorakılıq hallarından müdafiəsi, onların öz hüquqlarını bilməsi və müdafiəsi ilə bağlı bacarıqlarının artırılması bu gün aktual məsələlərdən biridir. Bu məqsədlə yanvarın 9-da Komitədə uşaqların iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə çıxış edən uşaqlar öz hüquqları, onları narahat edən məsələlər barədə çıxışlar edərək, təkliflər səsləndirmişdir. Uşaqların təhlükəsizliyində valideynlərin və böyüklərin vacib rolu qeyd edilərək, uşaqların hüquqlarının müdafiəsində özlərinin daha fəal olmalarının əhəmiyyəti vurğulanmışdır. Xüsusilə regionlarda uşaqların zorakılıq hallarından müdafiəsi istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və nəzarət tədbirlərinin gücləndirilməsi, uşaqların fikirlərinə hörmətlə yanaşılması məqsədilə ailələrlə maarifləndirmə işlərinin aparılması, cəmiyyətdə hər bir uşağa qarşı hörmət hissinin aşılanması məqsədilə kütləvi təbliğat kampaniyalarının aparılması, uşaqlara qarşı cinayət hadisələrinin cəzalandırılması istiqamətində qanunvericiliyin sərtləşdirilməsi ilə bağlı təkliflər irəli sürmüşdür.

“Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı” Dövlət Proqramının “Valideyn himayəsindən məhrum olmuş kimsəsiz məzunların yaşayış şəraitinin yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi” bəndinə uyğun olaraq bu istiqamətdə mütəmadi tədbirlər həyata keçirilir. Bu məqsədlə yanvarın 24-də Komitənin təşəbbüsü ilə Abşeron rayonu Masazır qəsəbəsində yerləşən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində olan “Məzun evi”nin gənc sakinlərinə “Həyati bacarıqlara yiyələn!” mövzusunda açıq qapı günü təşkil edilmişdir. Tədbirdə gənclərin ictimai fəallığının artırılması, eləcə də həyati bacarıqların inkişaf etdirilməsi istiqamətində mütəmadi keçirilən təlim və görüşlər haqqında məlumatlar diqqətə çatdırılmışdır.

Yanvarın 16-da Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) “20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2019-cu il tarixli Sərancamı ilə bağlı Komitənin təşəbbüsü və AMEA-nın Elm Tarixi İnstitutunun birgə təşkilatçılığı ilə “20 Yanvar Hüzn Günü” adlı anım tədbiri keçirilmişdir. Həmçinin “ARB Günəş” uşaq televiziya kanalının dəstəyi ilə uşaqlardan ibarət bədii səhnəcik hazırlanaraq “20 Yanvar faciəsinin 30-cu ildönümü”nə həsr olunmuş videoçarx nümayiş etdirilmişdir. Fevralın










26-da Komitənin və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin birgə təşkilatçılığı ilə Xocalı faciəsinin 28-ci ildönümü ilə bağlı anım tədbiri keçirilmişdir. Nazirliyin İnformasiya-Kommunikasiya Texnologiyalarının (İKT) Tətbiqi və Tədrisi Mərkəzinin Bakı, Gəncə, Mingəçevir, Lənkəran şəhərlərindəki, eləcə də Zaqatala, Şamaxı, Qəbələ rayonlarında yerləşən mərkəzləri vasitəsilə 200-ə yaxın orta məktəb şagirdi birbaşa tədbirə qoşulmuşdur. Tədbir zamanı uşaqlar tərəfindən sosial şəbəkələr vasitəsilə beynəlxalq təşkilatlara, xaricdə yaşayan geniş əhali kütləsinə Xocalı faciəsi haqqında məlumatları özündə əks etdirən mesajlar çatdırılmışdır.





Komitə xəstəliklərlə mübarizə aparan uşaqlara dəstək olmaq, onların ehtiyaclarını təmin etmək və mənəvi dəstək olmaq məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Fevralın 13-də Dünyada Beynəlxalq Uşaq Xərçəng Xəstəlikləri ilə Mübarizə Günü münasibətilə “Pirple Kids” Tədris İnkişaf Mərkəzi ilə birgə Milli Onkologiya Mərkəzində müalicə alan 1-17 yaşadək olan 54 uşağın iştirakı ilə görüş təşkil edilmiş və uşaqlara müxtəlif əyləncəvi hədiyyələr paylanılmışdır. Heydər Əliyev Fondunun çağırışına cavab olaraq, qeydiyyata alınmış və hər ay qan köçürülməsinə ehtiyac duyan uşaqlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə aprelin 7-də Milli Hematologiya və Transfiziologiya Mərkəzində qanvermə aksiyası keçirilmişdir. Humanist xarakterli aksiyada “Ümidli Gələcək” Gənclər Təşkilatının, “Birlik” Xeyriyyə Təşkilatının, “Azərbaycan Qadınları Respublika Cəmiyyəti” İctimai Birliyinin, “SAF Həyat Naminə” Gənclər İctimai Birliyinin, Bakı Tekstil Fabrikinin, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının, Azərbaycan Türkiyə İş Adamları Birliyinin əməkdaşları və üzvləri, könüllü ailələr də iştirak etmişdir. Komitənin çağırışı ilə bu aksiyaya 399 nəfər qoşulmuşdur.




Növbəti sosial layihə olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə birgə əməkdaşlıq çərçivəsində ölkədə karantin xəstəxanalarında koronavirusdan müalicə alan uşaqlara dəstək məqsədilə aprelin 13-də “kitab hədiyyəsi” aksiyası keçirilmişdir. Ölkəmizdə fəaliyyət göstərən uşaq kitabxanaları, uşaq nəşriyyatları və uşaq yazarlarının böyük marağına səbəb olan aksiyaya ilk

olaraq Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası, Bakı Uşaq Nəşriyyatı, Gəncliyə Yardım Fondu, uşaq yazıçısı Mehriban Nağıyeva dəstək vermişlər. Qısa müddət ərzində 300-ə yaxın kitab toplanmışdır. Aksiyanın təşkilində məqsəd koronavirusdan müalicə alan uşaqların təcrid şəraitində vaxtını səmərəli keçirmələrinə yardım etmək, onların davamlı mütaliə həvəsini artırmaqla inkişafına kömək etmək, eləcə də mənəvi və psixoloji dəstək verməkdir.

Aprelin 1-də uşaqlar üçün "Həyati bacarıqlara yiyələn!" mövzusunda onlayn təlim keçirilmiş və uşaqlara hazırda yayılmış koronavirusdan qorunmaq üçün şəxsi gigiyena qaydalarına riayət olunmasının əhəmiyyəti haqqında məlumat verilmişdir. Təlim uşaqların müasir dövrün tələblərinə uyğun olaraq bilik və bacarıqlar əldə etməsi, bu bacarıqların inkişaf etdirilməsi və onlardan səmərəli istifadə yolları məsələlərini əhatə etmişdir.

Komitə tərəfindən uşaqların iştirakı ilə onlayn təlimlər keçirilmişdir. Aprelin 8-də "Uşaqların asudə vaxtının səmərəli təşkili" mövzusunda onlayn təlim keçirilmişdir. Onlayn təlim zamanı "Evdə qal" kampaniyasına qoşulan uşaqların vaxtlarını səmərəli keçirməsi və mövcud vəziyyət nəzərə alınaraq əldə edə biləcəkləri onlayn resurs mənbələri haqqında məlumat verilmiş və onları maraqlandıran suallar cavablandırılmışdır. Aprelin 15-də "Uşaq və gənclərin uğurlu ixtisas və peşə seçimi" mövzusunda onlayn müzakirə təşkil edilmişdir. Müzakirə çərçivəsində uşaq və valideynlər tərəfindən onları maraqlandıran çoxsaylı suallar cavablandırılmış və bu istiqamətdə tövsiyələr verilmişdir. Müzakirədə BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional vitse-prezidenti Bəxtiyar Aslanbəyli, ADA Universitetinin professoru Gülməmməd Məmmədov və Komitənin əməkdaşı Fərid Ədilov iştirak etmişdir. Aprelin 29-da valideynlər üçün "Karantin vəziyyətində sağlamlıq imkanları məhdud uşaqların psixoloji reabilitasiyası" mövzusu ətrafında birbaşa canlı yayımlanan onlayn müzakirə keçirilmişdir. Onlayn görüşdə Komitənin, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin, həmçinin Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin psixoloqu tərəfindən valideynlərin sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial uyğunlaşması ilə bağlı sualları cavablandırılmışdır.







Mayın 18-də Milli Məclisin deputatı, Dağlıq Qarabağın Azərbaycan İcması İctimai Birliyinin sədri Tural Gəncəliyev və Komitə əməkdaşı Fərid Ədilovun iştirakı ilə "Qarabağ həqiqətlərinin dünyaya çatdırılması" mövzusunda onlayn müzakirə təşkil edilmişdir. Onlayn müzakirənin keçirilməsində məqsəd erməni işğalı və bunun nəticəsində dinc əhalinin üzləşdiyi məhrumiyyətlər barədə məlumatların dünya ictimaiyyətinə tam və hərtərəfli şəkildə çatdırılmasında yeniyetmə və gənclərin düzgün istiqamətləndirilməsi, habelə onların məlumatlılığının artırılması olmuşdur.

Uşaq Səfirlər Məclisi

Komitənin layihəsi olaraq yaradılan Uşaq Səfirlər Məclisi Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ilə bağlı irəli sürülmüşdür. Məqsəd uşaqlarda müstəqil özünü ifadəetmə bacarığının formalaşması, ictimai fəallığının artırılması, liderlik keyfiyyətlərinin təkmilləşdirilməsi, uşaqların iştirak hüququnun təmin olunması, uşaqların fəal vətəndaşlıq və qanunun aliliyi ruhunda istiqamətlənməsi, uşaq hüquqlarının pozulması və ya ona səbəb ola biləcək hallarla rastlaşdıqda müvafiq məsələlərin aidiyyəti qurum qarşısında qaldırılması və bu problemlərin həlli istiqamətində tədbirlərin görülməsidir. Uşaq Səfirlər Məclisinə uşaqların müsabiqə əsasında seçilməsi məqsədilə 31 dekabr 2019-cu il tarixində müsabiqə elan edilmişdir. Məclisin üzvləri fəal şəkildə bir sıra təşəbbüslərlə çıxış etmiş və Komitənin dəstəyi ilə mühüm tədbirlərin təşkil edilməsində yaxından iştirak etmişdirlər.



Hər il olduğu kimi bu il də 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Komitə tərəfindən iştirakı ilə tədbir keçirilmişdir. Karantin qaydalarına uyğun olaraq bu ilki tədbir onlayn qaydada videokonfrans formatında Uşaq Səfirlər Məclisi üzvlərinin iştirakı ilə təşkil edilmişdir. Tədbirdə Komitə sədri Bahar Muradova çıxış edərək, Uşaq Səfirlər Məclisinin timsalında bütün Azərbaycan uşaqlarını Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik edərək, hər bir uşağa sülh, əmin-amanlıq şəraitində yaşamaq və xoşbəxt gələcək arzulamışdır. Konfrans iştirakçıları uşaq səfirləri olaraq bu missiyanın şərəfli olduğunu və böyük məsuliyyət tələb etdiyini bildirərək, Uşaq Səfirlər Məclisinin üzvü seçilmələri ilə bağlı qürur hissi keçirdiklərini ifadə etmiş, Məclisdə uşaqların səsi olaraq onları təmsil edəcəklərinin sevincini paylaşmışlar. Özlərini təqdim edən hər bir iştirakçı ölkəmizdə təhsil sahəsində müasir texnologiyalar və yeniliklərin təbliği, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması, uşaqların mədəni-estetik zövqünün, ümumi dünyagörüşünün inkişafı, valideyn məsuliyyəti, COVİD-19 pandemiyası şəraitində uşaq psixologiyası, eləcə də, sağlamlıq imkanları məhdud olan uşaqların asudə vaxtının səmərəli təşkili, uşaqların internet təhlükəsizliyi kimi önəmli mövzulara toxundular.



İyulun 24-də Komitənin təşkilatçılığı ilə Uşaq Səfirlər Məclisi tərəfindən “COVİD-19 pandemiyasının insan həyatına törətdiyi əsas təhlükə və karantin müddətində asudə vaxtın səmərəli təşkili” mövzusunun müzakirəsi məqsədilə onlayn konfrans keçirilmişdir. Konfransda Uşaq Səfirlər Məclisinin üzvləri və ölkənin müxtəlif (Şəki, Qax, İsmayıllı, Tovuz, Bərdə, Laçın, Astara, Salyan, İmişli) regionlarından olan uşaqlar iştirak etmişdir. Konfrans zamanı öz həmyaşıdlarına çağırış edən uşaqlar internetin imkanlarından maksimum dərəcədə səmərəli istifadə edərək, Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində vacib addımların atılması məsələsinə diqqət çəkmişlər. Konfransın yekununda uşaq hüquqları ilə bağlı müxtəlif problemlərin öyrənilməsi baxımından Uşaq Səfirlər Məclisinin rolu qeyd edilərək regionlardan qatılmış iştirakçıların da uşaq səfirlərə dəstək vermələrinin və konfrans iştirakçıları olan uşaqlar arasında əlaqələrin daim inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanmışdır.

Avqustun 20-də Uşaq Səfirlər Məclisi üzvlərinin, eləcə də 2016-cı ilin aprel və 2020-ci ilin iyul döyüşlərində şəhid olmuş hərbçi və mülki soydaşlarımızın azyaşlı övladlarının iştirakı ilə “Qarabağ Azərbaycandır!” mövzusunda onlayn formatda tədbir keçirilmişdir. Uşaq Səfirlər Məclisi tərəfindən Komitə və AzərTAC-ın dəstəyi ilə “Biz terrora yox deyirik, sülh və ədalət istəyirik” adlı videoçarx hazırlanmışdır və daha geniş auditoriyaya çatdırılması üçün ingilis dilində altyazı ilə təqdim edilmişdir. Məclis üzvləri Ermənistanın təcavüzkarlıq siyasətinin ifşa edilməsində, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında üzərlərinə mühüm vəzifələr düşdüyünü qeyd edərək, dövlətin bu istiqamətdə apardığı siyasətə dəstək verilməsini və birgə fəaliyyətin əhəmiyyətini qeyd etmişlər. Bununla bağlı uşaqlar tərəfindən müxtəlif təkliflər irəli sürülmüş, Məclisin üzvləri səsləndirilən təkliflərin reallaşdırılması baxımından öz potensiallarını daha da gücləndirmək barədə yekdil qərara gəliblər.

Uşaq Səfirlər Məclisinin təşkilatçılığı ilə “Müasir təhsil, texnologiya və keyfiyyət. Uşaqlar müzakirəyə qoşulur” adlı onlayn konfrans keçirilmişdir. Avqustun 28-də keçirilən onlayn konfransda Komitənin sədr müavini Aynur Sofiyeva və Təhsil nazirinin müavini Firudin Qurbanov pandemiya dövründə tətbiq olunan karantin rejimi çərçivəsində təhsilin təşkili məsələləri ilə bağlı “Uşaq Səfirlər Məclisi”nin üzvlərini maraqlandıran sualları cavablandıraraq, təhsilin uşaqların həyatında mühüm rolunu, eyni zamanda hazırda davam edən pandemiya şəraitində tədrisin təşkili məsələsinin aktual olduğunu qeyd etdilər.





Noyabrın 20-də Komitənin dəstəyi və Uşaq Səfirlər Məclisinin təşəbbüsü ilə BMT-nin “Uşaq Hüquqları haqqında Konvensiyası”nın 31-ci ildönümü münasibətilə “Uşaq hüquqları: uşaqlar müzakirəyə qoşulur” mövzusunda beynəlxalq onlayn konfrans keçirilmişdir. Konfransda Azərbaycan, Böyük Britaniya, Türkiyə, Latviya, Macarıstan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Pakistan, Gürcüstan, Rusiya, Hindistan, İran, Birləşmiş Ərəb Əmirliklərindən olmaqla 14 ölkədən ümumilikdə 25 uşaq iştirak etmişdir. Komitə sədri Bahar Muradova Uşaq Hüquqlarının Müdafiəsi Günü münasibətlə uşaqları təbrik edərək, hər bir ölkənin gələcəyinin uşaqların düzgün tərbiyə olunmasından, təhsil səviyyəsindən, milli-mənəvi, eləcə də insani keyfiyyətlərinin püxtələşməsindən asılı olduğunu bildirmişdir. O, Komitənin bütün tərəfdaşlarla birgə uşaq siyasətinin həyata keçirilməsi istiqamətində üzərinə düşən öhdəlikləri yerinə yetirməyə çalışdığını və bu işdə uşaqların da yaxından iştirak edərək maraqlı fikir və təkliflərini bölüşərək ümumi işə böyük töhfələr verdiklərini qeyd etmişdir.





Komitə tərəfindən uşaq və yeniyetmələr arasında sağlam həyat tərzinin təbliği, zərərli vərdişlərin qarşısının alınması, uşaqların sağlamlığına təsir göstərən ekoloji, məişət və qida problemlərinin aradan qaldırılması, bu istiqamətdə valideyn məsuliyyətinin gücləndirilməsi, uşaqlara diqqətin, eləcə də əhalinin, xüsusilə yeniyetmələrin erkən nikahın mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsinin daha da artırılması ilə bağlı müvafiq dövlət, qeyri-hökumət və beynəlxalq təşkilatlar ilə əməkdaşlıq çərçivəsində mütəmadi olaraq ictimai maarifləndirmə tədbirləri həyata keçirilir. “Məsafə saxlamaq, birgə olmağımızın qarantıdır!” ,“Valideyn qayğısı – usaqların təhlükəsizliyi”, “Uşaqları sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qoruyaq!”, “18 yaşadək evlilik – Uşaq evliliyidir!..”, mövzusunda elektron posterlər hazırlanaraq ictimai nəqliyyat vasitələrinin üzərində yerləşdirilməsi təmin edilmişdir.

Komitə tərəfindən “Uşaqların internet təhlükəsizliyi və onun təmin olunması yolları” mövzusunda elektron təlim hazırlanmış və sosial şəbəkələrdə yerləşdirilmişdir. Həm uşaq, həm də valideyn auditoriyası üçün nəzərdə tutulan təlimdə internetin yaranması, ondan düzgün istifadə qaydaları, internetin faydalı və zərərli tərəfləri, virtual aləmdə mövcud olan təhlükələr, antivirus və virusları blok edən xüsusi proqramlar haqqında danışılmışdır. Elektron təlimdə həmçinin, COVİD-19 pandemiyası, onun ilkin əlamətləri, virusdan qorunma yolları şərh edilmiş, videohostinq və axtarış sistemlərinin uşaqların istifadəsi üçün nəzərdə tutulan versiyalarının tərtib olunmasında müsbət və mənfi tərəflər müzakirə edilmişdir. Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım İctimai Birliyi tərəfindən təqdimat işarət dilinə tərcümə edilmiş və internet resurslarda paylaşılmışdır.

İyunun 15-də Komitə tərəfindən “Erkən nikah və onun fəsadları” mövzusunda video rolik hazırlanmış və onlayn təlim keçirilmişdir. Həm uşaq, həm də valideyn auditoriyası üçün nəzərdə tutulan təlimdə qanunla müəyyən edilmiş qaydada bağlanmış nikahlar, erkən nikah anlayışı və onun fəsadları ilə bağlı ətraflı məlumat verilmişdir.




Komitə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamları ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı” və “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı”nda nəzərdə tutulmuş tədbirlərin icrasından irəli gələn məsələlərin müzakirəsi ilə əlaqədar dövlət orqanları və digər qurumların nümayəndələrinin iştirakı ilə dekabrın 18-də videokonfrans formatında tədbir keçirmişdir.



Ölkə Prezidentinin yeritdiyi sosial siyasət və imzaladığı hər iki sənədin məqsədi barədə giriş nitqi ilə çıxış edən Baş Nazirin müavini Əli Əhmədov dövlət siyasətində uşaqlara qayğı, uşaq hüquqlarının qorunması, təhsil alması, sağlam böyüməsi və həyata hazırlanması üçün geniş proqramın mövcud olduğunu və həmin proqramın həyata keçirilməsi üçün bir sıra dövlət qurumlarının sistemli şəkildə fəaliyyət göstərdiyini qeyd etmişdir.

Sənədlərdən irəli gələn məsələlərlə bağlı çıxış edən Komitə sədri Bahar Muradova vurğulamışdır ki, Məişət zorakılığı Milli Fəaliyyət Planı məlumatlandırma və maarifləndirmə tədbirlərinin, habelə zorakılığa yol verilməməsinin təşviqi, zərər çəkmiş şəxslərin aşkarlanaraq erkən identifikasiyası, bu şəxslərin müasir standartlara uyğun yardım xidmətləri ilə təmin olunması, məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiə sisisteminin formalaşdırılması və digər tədbirləri özündə ehtiva edir. “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı” haqqında danışan Komitə sədri sənədin bəndləri üzrə məlumatların vahid platformada toplanılması və elektronlaşdırılmasının vacibliyini qeyd edərək əlavə etmişdir ki, bu, icraçı qurumlara vahid platforma üzərindən müvafiq məlumatların daha çevik formada ötürülməsi işində vacib rol oynayacaqdır.

Konfransda Ombudsman Səbinə Əliyeva, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin müavini Hidayət Abdullayev, Təhsil Nazirinin müavini Firudin Qurbanov, Bakı şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova çıxış edərək təmsil etdikləri qurumların sənədlərdən irəli gələn məsələlərin icrası istiqamətində görülən işləri və bundan sonra da lazım olan bütün addımların atılacağını diqqətə çatdırıblar.

# Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyəti

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək Mərkəzləri COVİD-19 pandemiyasının yayıldığı hazırki dönəmdə karantin və sosial izolyasiya qaydalarına riayət etməklə fəaliyyətini davam etdirmişdir. Şüvəlan, Ağdam, Goranboy, Göygöl, İsmayıllı, Zaqatala, Qəbələ, Zərdab, Saatlı, Sabirabad, Hacıqabul rayonlarında fəaliyyət göstərən Mərkəzlər cari il ərzində risk qrupuna aid olan ailələri aşkarlamaq, onların sosial-psixoloji vəziyyətini qiymətləndirdikdən sonra ailələrin problemlərinin həllinə kompleks şəklində yanaşılması, vətəndaşlar tərəfindən daxil olan müraciətlərin birbaşa və ya əlaqədar qurumlarla birgə həll edilməsi, məişət zorakılığı, qadın və uşaqlara qarşı törədilən zorakılıq hallarının, erkən nikahların, qızların təhsildən yayınma hallarının, ümumən insan hüquqlarının təbliği məqsədilə icmadaxili maarifləndirmə işlərinin aparılması, Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən terrora məruz qalan mülki əhaliyə sosial və psixoloji dəstəyin göstərilməsi və digər vacib istiqamətlərdə fəaliyyət göstərmişdir. Bu il Uşaq və Ailələrə Dəstək Mərkəzləri (UADM) tərəfindən 175 vətəndaşın yazılı müraciətinə baxılmış və qeyri-hökumət təşkilatları ilə birlikdə tədbirlər həyata keçirilmişdir.

Mərkəzlər tərəfindən həssas təbəqədən olan ailələrlə "Narkomaniya və onun fəsadları", "Erkən nikah", "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək", "COVİD-19 virusu ilə mübarizə", "Qadın zorakılığına son", "Uşaq zorakılığına son", "QİÇS-lə mübarizə", "Əlilliyin erkən profilaktikası", "Ailə dəyərləri", "Qaraçı ailələri ilə görüşlər", "Fövqəladə hallar zamanı nə etməli?", "İnsan hüquqlarının qorunması", "Məişət zorakılığı ilə mübarizə", "Dağlıq Qarabağ münaqişəsi", "Uşaqların cinsi istismarı", "Uşaq əməyinin istismarı" mövzuları ətrafında və dövlət əhəmiyyətli bayramlar ilə əlaqədar silsilə tədbirlər həyata keçirilmişdir.

Pandemiya ilə mübarizə kampaniyası çərçivəsində Komitə və Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən müxtəlif sahələr üzrə genişmiqyaslı layihələr, maarifləndirici tədbirlər və aksiyalar həyata keçirilmişdir. Bu fəaliyyət çərçivəsində **"Ailələrə zəng"** maarifləndirmə aksiyası vasitəsilə 3245 vətəndaş məlumatlandırılmış, 1020 ailəyə məlumat vərəqi paylanılmış, 361 nəfərə psixoloji dəstək göstərilmişdir. Psixoloji dəstək daha çox panik atak, depressiya, fobiyalar, tənhalıq qorxusu, xəstəlik qorxusuna dair göstərilmişdir. 1562 nəfərə Mərkəzlərin könüllüləri tərəfindən tikilmiş tibbi maskalar paylanılmış, 834 uşağa onlayn məşğələ keçirilmişdir. Komitə və Mərkəzlərin səyi nəticəsində mart-iyul aylarında 2446 ailə ərzaq yardımı ilə təmin olunmuşdur.






Komitə tərəfindən keçirilən **"Ailədən ailəyə"** dəstək aksiyası çərçivəsində 146 ailə tərəfindən həssas təbəqədən olan 745 ailəyə yardım göstərilmişdir. Dövlət Gömrük Komitəsi və "Asan Könüllüləri" Təşkilatı tərəfindən 74 ahıl və tənha şəxsə, Qadın Resurs Mərkəzləri ilə birgə 340 nəfərə, UADM tərəfindən 145 ailəyə ərzaq yardımı göstərilmişdir. Avropa İttifaqının maliyyə dəstəyi və UNICEF-lə birgə regional mərkəzlərin fəaliyyət göstərdiyi icmalarda yaşayan 483 aztəminatlı və risk qruplu ailəyə UADM əməkdaşları və "Asan Könüllüləri" ilə birgə ərzaq yardımı edilmişdir. Eyni zamanda Qurban bayramı münasibətilə 337 ailəyə müxtəlif qurumların birgə köməyi nəticəsində bayram sovqatı paylanılmışdır. Bu ərəfədə Komitəyə edilən 322 müraciət əsasında Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən ərzaq yardımı edilmişdir.

"Ailələrə zəng", "Ailədən ailəyə" dəstək aksiyası**,** Dövlət Gömrük Komitəsi, "Asan Könüllüləri" Təşkilatı, Qadın Resurs Mərkəzləri, UNICEF, PASHA Bank, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə və Mərkəzlər tərəfindən keçirilən tədbirlər zamanı 9876 nəfər iştirak etmiş, ümumilikdə 12497 nəfər ərzaq yardımı, psixoloji dəstək, dezinfeksiyaedici maddələr, qoruyucu vasitələrlə təmin olunmuş, məlumatlandırılmış, bir sıra mərkəz xidmətlərindən istifadə edilmiş və 1839 ailəyə mövzular ilə əlaqəli bukletlər paylanılmışdır.

Beynəlxalq təşkilatların dəstəyi ilə və **"Ailədən-ailəyə"** aksiyası çərçivəsində yaşayış yerini müvəqqəti tərk edən və müvafiq yardıma ehtiyacı olan 341 ailənin mahiyyəti üzrə sanitar qovşaq problemi, kompensasiya alması, müvəqqəti sığınacaqla təmin olunması, ərzaq, isti geyimlər, yataq dəstləri, gigiyenik vasitələr, uşaq bezləri, vitaminlər, qrip əleyhinə dərman preparatları, qızdırıcı vasitələr, dezinfeksiyaedici məhsullar, azyaşlı uşaqların mərkəzdəki loqopedik, inkişafetdirici məşğələyə cəlb olunması və psixoloji dəstək ilə təmin olunmasına köməklik göstərilmişdir. Şəhid ailələrinin istəkləri nəzərə alınaraq evdə şəhid guşəsinin yaradılması və şəhid övladlarının doğum gününün təşkili həyata keçirilmişdir.








9 may Faşizm üzərində Qələbənin 75 illiyi münasibətilə Respublika üzrə 15 qadın veteran ziyarət edilərək onlara Komitə sədrinin təbrik məktubu və hədiyyələr təqdim edilmişdir.






Uşaq və Ailələrə Dəstək Mərkəzləri sentyabrın 27-dən başlayaraq, torpaqlarımızın azad olunması uğrunda gedən Vətən müharibəsi dövründə Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində əziyyət çəkmiş ailələrə müvafiq istiqamətlərdə dəstək göstərmişdir. Bu zaman kəsiyində Mərkəzlər tərəfindən şəhid ailələri ziyarət olunmuş, onlara başsağlığı verilmiş və psixoloji dəstək göstərilmişdir. Mərkəz əməkdaşları rayon xəstəxanalarında müalicə alan 81 yaralı əsgəri ziyarət etmiş, onların istəkləri nəzərə alınaraq müvafiq yardımlar etmiş və qanvermə aksiyasında fəal iştirak etmişlər. Şəhid ailələrinə "ölüm haqqında şəhadətnamə" verilməsi, birdəfəlik ödənişə müraciət etmə qaydası, vəfat etmiş şəxsin övladına ailə başçısını itirməyə görə müavinətin təyin edilməsi, Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin edilməsi və ünvanlı sosial yardımın verilməsi qaydaları haqqında geniş məlumat verilmiş və prosesin gedişatında köməklik göstərilmişdir. Eyni zamanda cəbhədə döyüşən əsgərlər üçün **"Əsgərə sovqat"** aksiyası çərçivəsində Mərkəz əməkdaşları və rayon əhalisi tərəfindən könüllü olaraq toplanmış gündəlik ehtiyac üçün nəzərdə tutulmuş vasitələr göndərilmişdir.




Vətən müharibəsi dövründə Uşaq və Ailələrə Dəstək Mərkəzləri Ermənistanın hərbi cinayətləri nəticəsində zərərçəkmiş ailələrin, qadın və uşaqların yanında olmuş, onların ehtiyaclarının müəyyən edilməsi və psixoloji vəziyyətlərinin qiymətləndirilməsi məqsədilə mütəmadi işlər aparmış və həmin ailələr daim diqqətdə saxlanılaraq ziyarət edilmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbərliyi və əməkdaşları tərəfindən 10 və 15 oktyabr tarixlərində cəbhəyanı bölgələrə səfər edilmiş, ailələrin ilkin ehtiyacları müəyyən edilmiş, qadın və uşaqlara psixoloji dəstək göstərilmişdir. Komitənin Ağdam, Goranboy və Göygöldə yerləşən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin əməkdaşları ailələrlə aparılan psixo-sosial işə cəlb olunmuş, Ermənistanın terror əməlləri nəticəsində travma almış uşaqların müxtəlif növ psixoloji və inkişafetdirici məşğələlərdə iştirakı təmin edilmişdir.

Ermənistan tərəfindən Bərdə şəhərinin bombalanması zamanı 6 ailədən 3-ü azyaşlı, 3-ü yeniyetmə olmaqla 6 uşağın travma alması nəticəsində yaranan psixoloji problemləri nəzərə alaraq həmin ailələrin Bakı şəhərində yaşayan yaxın qohumlarına göndərilməsi təmin edilmişdir. Gəncə şəhərinə raket hücumu nəticəsində zərərçəkmiş ailələrlə görüşlər keçirilmiş, terror nəticəsində zərər görmüş qadın və uşaqlara psixoloji dəstək göstərilmiş, ilkin ehtiyaclarının ödənilməsi məqsədi ilə yardım etmək istəyən vətəndaşlarla əlaqələndirilmişlər.






Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmək üçün döyüşlərin başladığı ilk gündən etibarən könüllü olaraq ordu sıralarına qoşulmaq üçün müraciət edənlər sırasında Komitənin və nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları da olmuşdur. Çağırış gələn gündən böyük həvəslə cəbhəyə yollan Qəbələ Uşaq və Ailələrə Dəsk Mərkəzinin əməkdaşı, 1994-cü il təvəllüdlü Elmir Ağalızadə Tərtər bölgəsində gedən döyüşlərdə ön cəbhədə qəhrəmancasına vuruşmuş, qəlpə yarası almasına baxmayaraq, sağaldıqdan dərhal sonra yenidən öz istəyi ilə döyüş bölgəsinə yollanmışdır. Bu, hər bir Azərbaycan gəncinin vətənpərvərlik hissinin, Vətən torpağına, millətinə olan sevgisinin və ruh yüksəkliyinin nümunəsidir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, UNICEF və "ASAN Könüllüləri" Gənclər Təşkilatı ilə birlikdə müharibədən zərər görmüş ana və uşaqlarla psixo-sosial işin təşkili məqsədi ilə "Fövqəladə Hallarda Uşaq Müdafiəsi" layihəsinə start vermişdir. Psixo-sosial qiymətləndirmə Komitənin, eləcə də Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin psixoloq və sosial işçilərinin də iştirak etdiyi təlimləndirilmiş mütəxəssis qrupu tərəfindən aparılır. Hazırda Goranboy və Gəncə şəhərlərində 300-ə qədər ailənin qiymətləndirilməsi aparılmış, risk qrupundan olan şəxslər müəyyənləşdirilmişdir. Layihə müharibə zonasına daxil olan digər ərazilərdə də davam etdiriləcəkdir. Bu məqsədlə yerli mütəxəssislərin təlimləndirilməsi nəzərdə tutulur.

Regionlarda təşkil olunan maarifləndirmə, eyni zamanda humanitar əhəmiyyətli tədbirlərlə yanaşı, Komitə rəhbərliyi tərəfindən vətəndaşların qəbulu həyata keçirilmişdir. Pandemiya ilə əlaqədar olaraq, qəbulların bir qismi onlayn qaydada keçirilmişdir. Yanvarın 27-də Naftalan şəhərində Naftalan, Mingəçevir, Yevlax, Goranboy, Xocalı rayonundan olan sakinlərin, fevralın 14-də Ağdaş rayonunda Kürdəmir, Göyçay, Ağdaş rayonundan olan sakinlərin, martın 13-də Sabirabad rayonunda Sabirabad, Saatlı, Hacıqabul rayonundan olan sakinlərin qəbulu keçirilmişdir. Eyni zamanda karantin qaydalarına uyğun olaraq sentyabrın 18-də Saatlı, Sabirabad, Hacıqabul rayon sakinlərinin iştirakı ilə onlayn qəbul keçirilmişdir.

















AİLƏM





## *Beynəlxalq əməkdaşlıq*

***Cari il ərzində Komitə sədri Bahar Muradovanın bir sıra beynəlxalq təşkilatların rəhbərləri və xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən səfirlik və konsulluq nümayəndələri ilə mühüm əhəmiyyət kəsb edən görüşləri olmuşdur.***

Aprelin 21-də BMT-nin İnkişaf Proqramının (BMTİP) Azərbaycandakı Rezident Nümayəndəsi Alessandro Frakassetti arasında videokonfrans formatlı onlayn görüş keçirilmişdir. Görüşdə Komitə və BMT-nin İnkişaf Proqramının əməkdaşlığı çərçivəsində həyata keçirilən "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" layihəsinin nəticələri, Qadın Resurs Mərkəzlərinin fəaliyyətinin inkişafı, pandemiya ilə mübarizə istiqamətində mərkəzlərdə dəstək mexanizmlərinin işləməsi və digər məsələlər müzakirə edilmişdir.

Aprelin 28-də BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyinin rəhbəri Edvard Karvardin arasında videokonfrans formatlı onlayn görüş keçirilmişdir. Görüşdə Azərbaycanda uşaq hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlər, uşaqların cəmiyyətin həyatında iştirakçılığının gücləndirilməsi ilə bağlı aparılan işlər haqqında ətraflı müzakirələr aparılmışdır.

İyunun 18-də BMT-nin Azərbaycan Nümayəndəliyinin rəhbəri, Rezident Əlaqələndirici Qulam İsakzai ilə onlayn görüş keçirilmişdir. Görüş çərçivəsində BMT-nin Azərbaycan Hökuməti ilə əməkdaşlığı, onun müvafiq qurumları ilə Komitənin birgə fəaliyyəti, BMT-nin Dayanıqlı İnkişaf üzrə Çərçivə Sənədinin gender komponentinin, "Qadın məşğulluğunun təminatı ilə bağlı Milli Fəaliyyət Planı"na dəstəyin göstərilməsi və icrasına dair, o cümlədən, COVİD-19 pandemiyası ilə bağlı yaranan mövcud vəziyyət, bununla bağlı görülən tədbirlər və digər məsələlər müzakirə olunmuşdur.

Vətən müharibəsi dövründə erməni terrorizmi nəticəsində həyatını itirən və yaralanan mülki əhalinin, xüsusilə də uşaqların vəziyyətinin qiymətləndirilməsi, münaqişədən zərər çəkən uşaqlara psixoloji dəstəyin göstərilməsi və bu istiqamətdə təxirəsalınmaz işlərin müzakirəsi məqsədilə oktyabrın 13-də BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Edvard Karvardin və BMT-nin Azərbaycan Nümayəndəliyinin rəhbəri, Rezident Əlaqələndirici Qulam İsakzai ilə görüş keçirilmişdir.

İyunun 16-da İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə Vitse-Prezidenti Məsumə Ebtekar arasında "skype" vasitəsilə görüş keçirilmişdir. Görüşdə pandemiya dövründə Komitə tərəfindən həssas qruplardan olan ailələrlə aparılan sosial-psixoloji iş və maddi yardımların göstərilməsinə dair fəaliyyət haqqında məlumat verilmişdir.

İyunun 17-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Elena Ajmone Sessera ilə onlayn görüş keçirilmişdir. Görüş çərçivəsində BQXK-nın münaqişə zonalarında olan Azərbaycan vətəndaşlarının işləri ilə bağlı həyata keçirdiyi fəaliyyətlər və BQXK-nın Azərbaycan Hökuməti və Komitə ilə əməkdaşlığı, COVİD-19 pandemiyasına qarşı mübarizə ilə bağlı tədbirlər və digər məsələlər müzakirə olunmuşdur. Sentyabrın 23-də isə BQXK-ya təyin olunmuş yeni rəhbər Arian Bauer və təşkilatın sabiq rəhbəri Elena Sessera ilə görüş keçirilmişdir.

İyunun 30-da Avropa Şurasının Azərbaycan Respublikasındakı Ofisinin rəhbəri Zoltan Hernyes ilə onlayn görüş keçirilmişdir. Görüş zamanı ikitərəfli əməkdaşlıq çərçivəsində birgə görülən işlər, xüsusən də media və gender bərabərliyi istiqamətində həyata keçirilən layihələr müzakirə edilmişdir.

Oktyabrın 9-da BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Orta Asiya üzrə regional direktoru Əfşan Xan ilə onlayn formatda görüş keçirilmişdir. Görüşdə bildirilmişdir ki, ölkəmizin UNICEF-in regional, eləcə də ölkə üzrə nümayəndəliyi ilə davamlı xarakter daşıyan əlaqələri hökumət, parlament, həm də cəmiyyət səviyyəsində çox faydalı olmuşdur. Ötən müddət ərzində aparılan müzakirələrdə koronavirus pandemiyasının yaratdığı çətinliklərin aradan qaldırılması, həssas təbəqələrdən olan uşaqların problemlərinin həlli ilə bağlı məsələlər ətrafında məsləhətləşmələr aparılmışdır.










***Komitə sədri Bahar Muradovanın xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən fövqəladə və səlahiyyətli səfirləri ilə ikitərəfli görüşləri keçirilmişdir.***

Sentyabrın 16-da Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Qo Minlə, oktyabrın 19-da İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Muriel Peneveyre ilə, oktyabrın 23-də Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bəhrom Əşrəfxanov ilə, oktyabrın 28-də Böyük Britaniyanın Azərbaycan Republikasındakı fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp ilə, noyabrın 4-də Yaponiyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi ilə, noyabrın 26-da Latviyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dainis Qarançs ilə görüşləri keçirilmişdir. Görüşlər çərçivəsində Azərbaycan Hökuməti ilə faydalı əməkdaşlıq, qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi istiqamətində birgə həyata keçiriləcək tədbirlər müzakirə edilmişdir. Görüşlərdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığa əsaslanan münasibətlərin bütün istiqamətlərdə yüksələn xətlə inkişaf etdiyi qeyd edilmişdir.













***Komitə BMT-nin Əhali Fondu, Uşaq Fondu, BMT-nin İnkişaf Proqramı, Avropa İttifaqı, Avropa Şurası, Asiya İnkişaf Bankı və digər beynəlxalq təşkilatlarla, eyni zamanda digər ölkələrlə əlaqələrin inkişaf etdirilməsi, birgə layihələrin keçirilməsi istiqamətində fəaliyyət göstərmişdir.***

Mayın 22-də Cənubi Qafqaz və Orta Asiyada pandemiya müddətində gender bərabərliyi sahəsində görülmüş işlərin təhlil edilməsi üçün BMT Qadınlar Təşkilatının (UN Women) Regional Ofisinin təşkilatçılığı ilə virtual görüş keçirilmişdir. Görüşdə Cənubi Qafqaz və Orta Asiya üzrə təşkilata üzv olan 8 ölkənin müvafiq qurumlarının rəhbər şəxsləri, o cümlədən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova iştirak etmişdir. S.Qəhrəmanova karantin müddətində ölkədə həyata keçirilən tədbirlər, insanların sosial rifahının tənzimlənməsi, həyat şəraitinin normada saxlanması üçün atılan addımlar haqqında məlumat vermişdir.




Avropa İttifaqının dəstəyi ilə 24-25 iyun tarixlərində "COVİD-19 kontekstində məişət zorakılığının qarşısının alınması sahəsində təcrübələrə dair" Multi-TAİEX onlayn seminar keçirilmişdir. Konfransda Komitə əməkdaşları fəal şəkildə iştirak etmişdir.




İyunun 26-da Avropa Şurasının Uşaq Hüquqları üzrə Daimi Komitəsinin (CDENF) üzv ölkələrdən ibarət ekspertlərinin iştirakı ilə video konfrans formatında keçirilən görüşdə Komitənin Aparat rəhbəri Ceyran Rəhmətullayeva Azərbaycanda COVİD-19 pandemiyası dövründə həyata keçirilən sosial dəstək proqramları barədə məlumat verərək dövlətin həyata keçirdiyi tədbirlərin xüsusilə həssas təbəqədən olan uşaqları və ailələri əhatə etdiyini qeyd etmişdir. Hazırda bütün Avropa üçün uşaq hüquqları sahəsində ciddi problemə çevrilən internet təhlükəsizliyi və uşaqların distant təhsilə bərabər və təhlükəsiz çıxışının vacib olduğunu bildirən C. Rəhmətullayeva üzv ölkələrin bu sahədə daha ciddi addımlar atmalı olduqlarını və qlobal internet təhlükəsizlik sisteminin təkmilləşdirilməsi və yeni internet təhlükəsizliyi proqramlarının hazırlanmasının vacibliyini diqqətə çatdırmışdır. Görüş zamanı pandemiya kimi fövqəladə vəziyyətlərdə uşaqların müdafiəsinin effektivliyinin təmin edilməsi, hesabat və müraciət formalarının qorunması və gücləndirilməsi, işin effektiv idarə olunmasının təmin edilməsi, uşaqlara qarşı zorakılığın qarşısının alınması və nəzarət tədbirlərinin görülməsi kimi məsələlər müzakirə edilmişdir.






Avqustun 21-də Qazaxıstan Respublikasının təhsil işçilərinin illik respublika tədbirləri çərçivəsində "Uşaqların rifahı: yeni zamanın problemləri və riskləri" mövzusunda videokonfrans formatında beynəlxalq tədbir keçirilmişdir. BMT-nin Uşaq Fondunun (UNICEF) Qazaxıstandakı nümayəndəsinin texniki və ekspert dəstəyi ilə təşkil edilmiş tədbirdə 11 qonşu ölkədən uşaqların hüquqlarının müdafiəsini əlaqələndirən mərkəzi dövlət orqanlarının nümayəndələri, uşaq hüquqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq və milli ekspertlər iştirak etmişdir. Tədbirdə Azərbaycan Respublikasını Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi təmsil etmişdir.

Oktyabrın 6-da "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması 2020-2021" layihəsinə start verilmişdir.

Oktyabrın 15-də Avropa İttifaqının maliyyə dəstəyi, Litva və Avstriyadan olan tərəfdaş təşkilatlar və Komitənin birgə tərəfdaşlığı ilə Azərbaycanda 2020-ci ilin sentyabr və 2021-ci ilin mart aylarını əhatə edəcək "Məişət zorakılığı qurbanlarının təhlükəsizliyini təmin etmək və onları dəstəkləmək üçün dövlət qurumları və yerli səviyyəli istiqamətləndirmə mexanizmlərinin potensialının artırılması" üzrə Tvinninq layihəsinin təqdimatı keçirilmişdir.




Oktyabrın 27-də BMT-nin Mərkəzi Asiya Dövlətləri üçün Xüsusi Proqramının (SPECA) Gender və Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə İşçi Qrupunun virtual iclası keçirilmişdir. Tədbirdə qadınların iqtisadi sahədə irəliləməsi məsələləri və gender bərabərliyi üzrə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində COVİD-19 pandemiyası dönəmində SPECA ölkələrində (Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstan) görülən işlər müzakirə olunmuşdur. Üzv ölkələrin yekdil səsverməsi ilə İşçi Qrupunun sədri seçilən Komitənin sədr müavini Sədaqət Qəhrəmanova çıxışında bildirmişdir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində mülki insanların hədəf seçilməsi, Gəncədə baş verən terror aktı zamanı qadın və uşaqların zərər çəkməsi Ermənistanın beynəlxalq hüquq normalarını kobud şəkildə pozmasıdır.

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİKA) təşkilatçılığı ilə Komitənin əməkdaşları üçün 11-17 noyabr tarixlərində "Selektiv abortların qarşısının alınması" layihəsi çərşivəsində onlayn təlim təşkil olunmuşdur.

# Qəbul edilən hüquqi sənədlər

Bütün dünyanın COVİD-19 pandemiyası ilə mübarizə apardığı bir dönəmdə ölkəmizdə də bu virusun yayılmasının qarşısının alınması istiqamətində vacib tədbirlər həyata keçirilmişdir. Biz pandemiya ilə yanaşı, həm də işğal altında olan torpaqlarımızın azadlığı uğrunda mübarizə apardıq və zəfər çaldıq. Bu ilin bütün çətinliklərinə baxmayaraq, ölkəmiz bir çox sahələrdə böyük uğurlar əldə etdi, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində vacib addımlar atıldı, çoxsaylı sosial layihələr həyata keçirildi. Xüsusən də həssas qrupdan olan əhalinin sosial məsələlərinin həlli, insan hüquqlarının qorunması istiqamətində mühüm qanunlar və digər hüquqi sənədlər qəbul edildi. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də bir sıra qanunvericilik təşəbbüsləri ilə çıxış etdi və bir sıra hüquqi sənədlərin qəbul edilməsi prosesində birbaşa və yaxından iştirak etdi.

**“Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında dövlət uşaq siyasətinin həyata keçirilməsi və uşaqların hüquqlarının müdafiəsinin kompleks şəkildə təmin edilməsi məqsədilə qərara alıram:**

1. “Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası” (bundan sonra – Strategiya) təsdiq edilsin (əlavə olunur).
2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Strategiyanın həyata keçirilməsində əlaqələndirici orqan Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi müəyyən edilsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:
   3.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Strategiyanın 2020–2025-ci illərdə icrası üzrə fəaliyyət planının layihəsini 3 (üç) ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
   3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 2 iyun 2020-ci il.

**“Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası”**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020:Gələcəyə Baxış” İnkişaf Konsepsiyasının 7.4-cü bəndinə əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən “Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası” hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Strategiyanın məqsədi ölkədə uşaq müdafiəsi sisteminin Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə və BMT-nin “Uşaq hüquqları haqqında Konvensiyası”nın prinsiplərinə tam uyğunlaşdırılmasından, Azərbaycan Respublikasının ərazisində bütün uşaqlar üçün bərabər imkanların yaradılmasından, onların ən ümdə maraqlarının qorunmasından, dövlət qayğısına ehtiyacı olan uşaqların hüquqlarının daha səmərəli müdafiəsindən, onlar üçün müasir standartlara malik sosial dəstək xidmətlərinin təmin edilməsindən ibarətdir.

Sənəddə vurğulanır ki, BMT Baş Assambleyasının 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi və BMT-nin 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədləri uşaqların rifah halının yüksəlməsi istiqamətində fəaliyyətlərin daha da gücləndirilməsini zəruri edir.

Strategiyada dövlət uşaq siyasətinin başlıca prinsipləri kimi uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması vurğulanır.

Sənəddə uşaqlarla bağlı ölkəmizin qoşulduğu beynəlxalq konvensiyalar, qəbul edilən qanunlar, dövlət proqramlarının uşaq hüquqlarının müdafiəsində əhəmiyyəti vurğulanır, həmin sənədlərdən irəli gələrək ölkədə həyata keçirilmiş islahatlar uşaq hüquqlarının müdafiəsi baxımından təhlil edilir.

Sənəddə göstərilir ki, uşaqların sağlam böyüməsi, onların baxımsızlığı hallarının aradan qaldırılması, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud, məcburi köçkün ailələrdən olan uşaqların sosial müdafiəsinin təmin edilməsi dövlət tərəfindən qəbul edilən sosial yönümlü proqramlarda xüsusi yer tutur.

Sənəddə uşaqlarla bağlı statistik göstəricilərin – ana və uşaq ölümləri, uşaqların inkişafdan geri qalması, xüsusilə anemiya halları, uşaqların əlilliyi, məktəbəqədər təhsilə cəlb olunma səviyyəsi, dövlət uşaq müəssisələrində yaşayan və təhsil alan uşaqlar, uşaqlarla bağlı cinayət halları, uşaqların mədəni-estetik inkişafı ilə bağlı statistik göstəricilərin müqayisəli təhlili aparılaraq problemli sahələr müəyyən edilmişdir.

Mövcud problemlərin analizi nəticəsində Strategiyada **5 prioritet istiqamət** müəyyən edilmiş və hər bir istiqamət üzrə həyata keçirilməsi nəzərdə tutulan konkret fəaliyyətlər sadalanır. Strateji istiqamətlər aşağıdakılardır:

1. uşaq müdafiəsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi. Bu bölmə üzrə nəzərdə tutulan fəaliyyətlər uşaq hüquqlarının daha effektiv müdafiəsi istiqamətində islahatların aparılmasını nəzərdə tutur;
2. erkən uşaqlıq dövründə uşaqların inkişafının təmin edilməsi. Bu bölmədə erkən yaşda uşaqların sağlamlığının qorunması, fiziki, əqli və psixoloji inkişafı sahəsində fəaliyyətlər müəyyən edilmişdir;
3. çətin həyat şəraitində olan uşaqların müdafiəsinin gücləndirilməsi. Bu bölmə üzrə sağlamlıq imkanları məhdud, baxımsız, valideyn himayəsindən məhrum, zorakılığa məruz qalmış, cinayətin qurbanı olan uşaqların hüquqlarının müdafiəsi üzrə fəaliyyətlər müəyyən edilmişdir;
4. uşaqların mədəni-estetik tərbiyəsi və mədəni tədbirlərdə uşaqların iştirakının təmin edilməsi. Bu bölmə üzrə uşaq iştirakçılığının təmin edilməsi, xüsusi istedadlı uşaqların aşkar edilməsi, uşaqların asudə vaxtının təşkili, idman və mədəni tədbirlərə cəlb edilməsi, potensialının inkişaf etdirilməsi sahəsində fəaliyyətlər müəyyən edilmişdir;
5. uşaq hüquqlarının həyata keçirilməsi vəziyyətinin monitorinqi və qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi. Bu bölmədə uşaq problemlərinin müxtəlif istiqamətləri üzrə təhlillərin aparılması, uşaqlarla bağlı müxtəlif məlumat bazası sistemlərinin təkmilllşdirilməsi üzrə fəaliyyətlər nəzərdə tutulmuşdur.

**Strategiyanın icrasından gözlənilən nəticələr aşağıdakılardır:**

1. uşaq hüquqlarının müdafiəsi ilə bağlı çevik institusional mexanizm formalaşacaq;
2. erkən yaş dövründə uşaqların əqli, fiziki və psixoloji inkişafı təmin ediləcək;
3. xüsusi qayğıya ehtiyacı olan uşaqlar daha keyfiyyətli təhsil, səhiyyə və sosial xidmətlərlə əhatə olunacaq;
4. çətin həyat şəraitində olan ailə və uşaqların müdafiəsi daha da gücləndiriləcək;
5. uşaqların istedadlarının və bacarıqlarının inkişaf etdirilməsi, onların milli-mənəvi ruhda tərbiyə edilməsi istiqamətində tədbirlərin səmərəliliyi artacaq.

Strategiyanın həyata keçirilməsi 2020-2025-ci və 2026-2030-cu illəri əhatə edən iki fəaliyyət planının həyata keçirilməsi ilə təmin edilir. Fəaliyyət planı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir. Strategiyanın icrasına Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi nəzarət edir və Azərbaycan Respublikasının Prezidentinə Strategiyanın icrası barədə hesabat təqdim edir.

**“Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası”nın icrasını təmin etmək məqsədilə qərara alıram:

1. “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. həmin Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 27 noyabr 2020-ci il.

**“Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”**

“Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı” (bundan sonra Fəaliyyət Planı) Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsini, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları, konvensiyaların tələbləri və ölkələr üçün tövsiyə sənədi olaraq qəbul olunmuş strategiyaların prioritet istiqamətlərini rəhbər tutaraq tərtib olunmuşdur. Fəaliyyət Planı Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

Fəaliyyət Planı Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”nın (bundan sonra-Strategiya) 5.2-ci bəndinə uyğun olaraq, Strategiyanın icrasından gözlənilən nəticələrin əldə edilməsi, habelə uşaq hüquqlarının müdafiəsi sahəsində müvafiq qurumların qarşılıqlı fəaliyyəti ilə səmərəli sistemin təmin edilməsi üçün hazırlanmışdır.

Fəaliyyət Planı yerli səviyyədə uşaq müdafiə sistemini gücləndiməklə, ölkə üzrə uşaq müdafiə mexanizminin təkmilləşməsi və genişlənməsi istiqamətində tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Fəliyyət Planında pandemiya və digər fövqəladə vəziyyətlər də nəzərə alınmaqla uşaq hüquqlarının müdafiəsinə hərtərəfli yanaşma prinsipləri, xüsusi vəziyyətlərdə uşaqların bütün növ xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin olunması məsələləri, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkən uşaqlar və onların ailələrinə sosial–psixoloji dəstək tədbirlərinin gücləndirilməsi öz əksini tapmışdır. Eyni zamanda xarici ölkələrdə münaqişə qurbanı olmuş

və daha sonra ölkəmizə qaytarılmış Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların cəmiyyətə reinteqrasiyası istiqamətində də fəaliyyətlərin həyata keçirilməsi qeyd olunmuşdur.

Çətin həyat şəraitində, baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqların aşkarlanaraq, onlar barəsində sosial müdafiə, reabilitasiya və cəmiyyətə inteqrasiya sahəsində tədbirlərin həyata keçirilməsi, eyni zamanda ölkəmizdə alternativ qayğı xidmətlərinin inkişafı, həyatın bütün sferalarında uşaqlara qarşı zorakılığın qadağan olunması ilə bağlı qanunvericilik təkliflərinin işlənilməsi Fəaliyyət Planında nəzərdə tutulmuşdur.

Fəaliyyət Planında erkən yaş dövründə uşaqların inkişafının təmin olunması ilə bağlı körpələrin ana südü ilə qidalanmasının əhəmiyyətinin təbliği, doğuşayardım tibb müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinin artırılması, uşaqların əlilliyinin qarşısının alınması və inkişaf pozğunluqlarının erkən aşkarlanması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi və bu sahədə metodikaların təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Uşaqlarda təhlükəsiz həyat fəaliyyəti, xüsusilə internet təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, eyni zamanda informasiya-kommunikasiya texnologiyalarının tədrisinin təkmilləşdirilməsi və bu sahədə biliklərinin artırılması, yeniyetmələrin intellektual inkişafını stimullaşdıran layihələrin həyata keçirilməsi, sağlam həyat tərzinin və asudə vaxtın gücləndirilməsi istiqamətində tədbirlər də Fəaliyyət Planında nəzərdə tutulan əsas məsələlərdəndir.

Fəaliyyət Planının məqsədi 5 istiqamətin təmin edilməsindən ibarətdir. Fəaliyyət Planında qeyd edilən məqsədlərə nail olunması üçün əsas vəzifələri (tədbirləri), onların icra edilməsində müxtəlif qurumların (icra hakimiyyəti orqanları, qeyri-hökumət təşkilatları, beynəlxalq tərəfdaşlar və digər qurumlar) iştirakını və uşaq hüquqlarının müdafiəsi sahəsində digər tədbirləri nəzərdə tutur.

Sənəddə vurğulanır ki, BMT Baş Assambleyasının 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi və BMT-nin 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədləri uşaqların rifah halının yüksəlməsi istiqamətində fəaliyyətlərin daha da gücləndirilməsini zəruri edir.

**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**

**Q Ə R A R**

**“Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”nın təsdiq edilməsi haqqında**

“Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununun tətbiqi və “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 629 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə tapşırılsın ki, 18 yaşadək (erkən nikah) və yaşı 18-dən 29-dək olan gənclərin nikaha, o cümlədən müvafiq ərizələrindəki məlumatlara əsasən qohum hesab edilən şəxslər arasında nikaha daxil olması və bu gənclər arasında bağlanılmış nikahın pozulması hallarının statistikasının illər üzrə aparılmasını təmin etmək üçün müvafiq tədbirlər görsünlər.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli Əsədov***
*Azərbaycan Respublikasının Baş Naziri*

Bakı şəhəri, 23 iyun 2020-ci il № 213

**“Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”**

“Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununun tətbiqi və “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 629 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasının təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli, 213 nömrəli Qərarı ilə “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası” təsdiq edilmişdir. Sənədin layihəsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla hazırlanmışdır.

Belə ki, “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununa əsasən “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununa 9.3-cü maddə əlavə edilmişdir. Həmin maddəyə əsasən gənclər arasında, ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aparılır.

Qaydada gənclər arasında erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmənin aparılma prinsipləri, vasitələri, istiqamətləri, maarifləndirməni həyata keçirən dövlət qurumlarının dairəsi və onların funksiyaları müəyyən edilmişdir.

İlk dəfə olaraq məhz bu sənəddə “erkən nikah”, “qohumlar arasında nikah” və “erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələri ” anlayışlarının izahı verilmişdir. Belə ki, AR Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən edilmişdir. Üzrlü səbəblər olduqda nikah yaşı 1 ildən çox olmayaraq azaldıla bilər. Qaydada erkən nikah – 18 yaşadək şəxslə bağlanmış nikah hesab edilir. Qohumlar arasında nikah dedikdə isə baba və (və ya) nənəsi ümumi olan şəxslər arasında bağlanmış nikah nəzərdə tutulur.

Erkən nikah və qohumlar arasında nikah halları Azərbaycanda aktual ailə problemlərindən biridir. Bu halların baş verməsi bir çox hallarda ailələrdə münaqişələrə, boşanmalara, anadangəlmə qüsurlu uşaqların dünyaya gəlməsinə və nəticədə sosail cəhətdən həssas qrupların sayının artmasına səbəb olur.

Ölkədə 18 yaşadək nikaha girən qızların sayının ən yüksək həddi 2011-ci ildə olub. Həmin dövrdə belə qızların sayı 5138 idisə, qanunvericillikdə qızlar üçün minimal nikah yaşının 17-dən 18-ə qaldırılması, habelə qadını nikaha məcbur etməyə görə cinayət məsuliyyətinin müəyyən edilməsi və maariflənmə işləri nəticəsində 2012-ci ildən bu göstəricinin azalması müşahidə olunur. Belə ki, 2018-ci ildə bu rəqəm 338 olub. Eyni zamanda, 15-17 yaşlı qadınlar tərəfindən doğulan uşaqların sayı da 2011-ci ildə 4392 idisə, 2018-ci ildə bu rəqəm azalaraq 2129 olub. Qohumlar arasında nikahlarla bağlı statistika mövcud deyildir.

Təsdiq edilmiş Qərarın 2-ci hissəsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə 18 yaşadək (erkən nikah) və yaşı 18-dən 29-dək olan gənclərin nikaha, o cümlədən müvafiq ərizələrindəki məlumatlara əsasən qohum hesab edilən şəxslər arasında nikaha daxil olması və bu gənclər arasında bağlanmış nikahın pozulması hallarının statistikasının illər üzrə aparılmasını təmin etmək üçün müvafiq tədbirlər görülməsi tapşırılmışdır.

“Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası” aidiyyəti dövlət orqanları tərəfindən gənclərin erkən nikahların və qohumlar arasında nikahların mənfi nəticələri barədə maarifləndirilməsi işinin daha məqsədyönlü şəkildə aparılmasına imkan verəcəkdir.

Sənəddə maarifləndirməni həyata keçirən dövlət orqanlarına müvafiq sahədə gördükləri tədbirlər barədə məlumatların hər ilin 20 dekabr tarixinədək Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim etməklə özlərinin rəsmi informasiya ehtiyatlarında yerləşdirilməsi həvalə edilmişdir. Dövlət Komitəsi isə öz növbəsində orqanlardan daxil olan məlumatları ümumiləşdirib hər növbəti ilin yanvar ayının sonunadək özünün rəsmi internet saytında dərc etməli və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməlidir.

Qaydanın 1.3-cü bəndinə əsasən gənclər arasında maarifləndirməni yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri, televiziya və radio yayımçıları, qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər də həyata keçirə bilərlər.

Dövlət Komitəsi yeni təsdiq edilmiş Qaydadan irəli gələrək həyata keçiriləcək tədbirlərin effektivliyini artırmaq məqsədilə cəmiyyətin bütün üzvlərini öz səylərini birləşdirməyə dəvət edir.

**“Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq qərara alıram:

1. “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. həmin Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 27 noyabr 2020-ci il.

**“Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı”**

Məişət zorakılığının qarşısının alınması istiqamətində görülən işlərin səmərəliliyini artırmaq üçün qabaqlayıcı tədbirlərin gücləndirilməsi, zorakılıqdan zərər çəkmiş şəxslərə təxirəsalınmaz və hərtərəfli yardım göstərilməsi və bu məqsədlə beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun yaradılması, məişət zorakılığı ilə mübarizə sahəsində dövlət orqanlarının (qurumlarının) potensialının artırılması və qeyri-hökumət təşkilatlarının dəstəklənməsi uzunmüddətli və kompleks yanaşma tələb edir.

Ölkədə məişət zorakılığının qarşısının alınması üzrə tədbirlərin beynəlxalq standartlara uyğunlaşdırılması, ailələrin möhkəmləndirilməsi naminə onların vaxtında və hərtərəfli yardımla təmin edilməsi, məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi aktlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və səmərəliliyinin artırılması məqsədi ilə Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

Milli Fəaliyyət Planında məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılması, məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində məlumatlandırma və maarifləndirmə tədbirlərinin təşviqi, məişət zorakılığından zərər çəkmiş şəxslərin aşkarlanması və erkən identifikasiyası, məişət zorakılığından zərər çəkmiş şəxslərin müasir standartlara uyğun yardım xidmətləri ilə təmin olunması, məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması istiqamətlərində tədbirlər nəzərdə tutulmuşdur.

Sənəddə zərər çəkmiş şəxslərin müdafiəsi üzrə qurumlararası əlaqələndirmə mexanizminin yaradılması, mütəxəssislərin hazırlanması, bu sahədə məhkəmə təcrübəsinin təhlili və tövsiyələrin hazırlanması, xüsusilə də yardım mərkəzlərinin, 24 saat, 7 gün açıq olan ödənişsiz qaynar xətt xidmətinin təşkili kimi tədbirlərin planlaşdırılması vacib əhəmiyyət daşıyır. Milli Fəaliyyət Planının həyata keçirilməsi zamanı beynəlxalq təşkilatlarla, eləcə də qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulmuşdur.

Sərəncama əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirir və icranın gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verir. Dövlət Komitəsi Milli Fəaliyyət Planının uğurla həyata keçirilməsi, monitorinqi və müntəzəm olaraq qiymətləndirilməsi üçün üçün işçi qruplar yaradacaq.

# COVİD-19 pandemiyasının ailələrə təsirinin təhlili

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi COVİD-19 pandemiyası ilə bağlı ölkədə keçirilən sosial izolyasiya tədbirləri və xüsusi karatin rejiminin tətbiqi nəticəsində ailələrdə şəxslər arasındakı münasibətlərdə yaranmış vəziyyəti öyrənmək məqsədilə təhlil aparmışdır. Keçirilən sorğunun nəticələri bir daha göstərdi ki, mühitdə, cəmiyyətdə baş verən hər bir hadisə bu və ya digər şəkildə ailəyə təsir edir.

Sorğu əhalinin 18 yaşdan yuxarı hissəsi arasında telefon və onlayn müsahibə formasında strukturlaşdırılmış sual-anket vasitəsilə keçirilmişdir. Bütövlükdə, bu tədqiqatda 648 respondent iştirak etmişdir. Sorğuda iştirak edən respondentlərin 41,8%-i kişi, 58,2%-i isə qadın olmuşdur Tədqiqatda təsadüfi seçmə əsasında sadə (nuklear) (69,2%) və mürəkkəb (30,8%) ailələr iştirak etmişdir.

Beləliklə, sorğuda iştirak edənlərin 44,7%-i öz ailələrindəki münasibəti “yaxşı”, 32,3%-i isə “çox yaxşı” deyə fikirlərini qeyd etmişdir. Cavablardan da göründüyü kimi, respondentlərin 77%-nin ailələrindəki münasibət yaxşıdır. Lakin qalan 23% ailələrdəki vəziyyət isə heç də qənaətbəxş deyil. Əgər biz digər suallarla müqayisəli təhlil aparsaq yaranan mənzərə bir daha göstərir ki, ailə qurmamışdan öncə münasibətlərin düzgün dəyərləndirilməsi, ailəni qurmaqda əsas məqsədin müəyyən edilməsi çox mühümdür.

**Ailədəki münasibətlərin qiymətləndirilməsi üzrə bölgü, faizlə**

| Siz ailənizdəki münasibətləri necə qiymətləndirirsiniz | |
|---|---|
| çox yaxşı | 32,3 |
| yaxşı | 44,7 |
| elə də yaxşı deyil | 8,4 |
| pis | 1,7 |
| elə də pis deyil | 13,2 |
| çox pis | 0,1 |

Fikrimizi əsaslandırmaq üçün anketdəki digər bir sualdan nümunə gətirək. Repondentlərə belə bir sualla müraciət olunmuşdur ki, “Sizin mübahisənizə əsas səbəb nədir?”. Təqdim edilən cavab variantlarından ən çox “bir-birimizi anlamırıq” (34,1%), “səbrsizlik” (15,5%) qeyd edilmişdir. Başqa bir sualda isə respondentlərdən hansı xüsusiyyətlərin onların ailəsinin möhkəmləndirməsinə kömək etdiyi soruşulmuşdur. Əsas cavab “bir-birini anlamaq” (35,6%) və “qarşılıqlı hörmət” (20,4%) olmuşdur.

Son dövrlərdə qloballaşma şəraitində baş verən bir sıra proseslər nəticə etibarı ilə cəmiyyətdə bir sıra ənənəvi dəyərlərin və ailələrin cəmiyyətdəki sosial statusunun zəifləməsinə səbəb olur. O cümlədən COVİD-19 pandemiyası bir çox ailələr üçün sınaq oldu. Bu isə ailəyə, ailədaxili münasibətlər sisteminə yeni baxış, mövcud müsbət ailə təcrübəsinin yeni formatda təqdim edilməsinə zəmin yaradır. Məhz bunu nəzərə alaraq, elə respondentlərin özlərinin fikirlərini öyrənmək maraqlı idi. “Fikrinizcə, hansı xüsusiyyətlər ailənizi möhkəmləndirməyə kömək edir?” sualını respondentlərin 35,6%-i “bir-birini anlamaq”, 20,4%-i “qarşılıqlı hörmət”, 19,1%-i “ailə qarşısındakı məsuliyyət”, 15,3%-i “dostluq, mehribançılıq”, 9,6%-i isə “sevgi, məhəbbət” kimi cavablandırmışdır. Cavablardan da göründüyü kimi müasir dövrdə ailələrin dağılmasının əsas səbəbi heç də maddi durum deyil, digər vacib məqamlardır ki, bunlar da özündə tərbiyə, mənəviyyat, davranış və əxlaqi dəyərləri birləşdirir.

**Ailəni möhkəmləndirən xüsusiyyətlərin bölgüsü, faizlə**




Boşanmalar hansı hallarda daha çox baş verir? Biz görürük ki, xasiyyətlər, xarakterlər uyğun gəlməyəndə, tərəflərdən biri zərərli vərdişlərə aludə olanda, erkən və qeyri-rəsmi nikahlarda, ailəyə ciddi münasibət göstərməyən, sosial və mənəvi məsuliyyət hissi aşağı qadın və kişilər olanda, sağlamlıq imkanları məhdud uşaq doğulan və uşaqsız ailələrdə boşanma halları daha çoxdur.

Karantin zamanı birgə vaxt keçirməyə münasibəti öyrənən zaman sorğuda iştirak edənlərin 58,2%-i karantin dövründə ailəliklə gün boyu birlikdə olmaqdan "razı" olduqlarını, 40,6%-i "qismən razı" olduqlarını, 1,2% isə "razı olmadığını" bildirmişdir.

**Karantin dövründə birlikdə keçirilən vaxta münasibətin bölgüsü, faizlə**




Respondentlərə verilən suallardan biri də karantin zamanı onların birgə məşğuliyyəti mözvunu idi. Belə ki, "Birlikdə keçirdiyiniz vaxtda əsasən nə edirsiniz?" sualına daha çox "birlikdə stolüstü oyunlar oynayırıq; TV-yə baxırıq"(37,4%), "uşaqların dərsləri ilə maraqlanır, onlarla birlikdə ev tapşırıqları edirik" (22,7%), "ailə-məişət işlərini birlikdə görürük" (18,2%) cavabları verilmişlər. Bu cavablardan da göründüyü kimi, insanlar öz ailə üzvləri ilə səmərəli vaxt keçirə bilərlər. Yetər ki, buna kifayət qədər vaxt olsun.

**Birlikdə keçirilən  vaxtda əsas məşğuliyyətlərin bölgüsü, faizlə**

| Birlikdə keçirilən  vaxtda əsas məşğuliyyətlər | |
|---|---|
| birgə müzakirə etməklə ailə üçün vacib qərarlar qəbul edirik | 7,8% |
| ailə-məişət işlərini birlikdə görürük | 18,2% |
| həyətyanı sahədə, bağda işləyirik | 4,6% |
| birlikdə stolüstü oyunlar oynayırıq; tv-yə baxırıq | 37,4% |
| uşaqların dərsləri ilə maraqlanır, onlarla birlikdə  ev tapşırıqları edirik | 22,7% |
| kitab oxuyub, müzakirə edirik | 3,3% |
| yeni məşğuliyyətlər kəşf edirik | 6% |

"Karantindən əvvəl və hazırda ailənizə olan münasibətdə hansı dəyişiklikləri qeyd edə bilərsiniz?" sualına verilən cavabların təhlili isə göstərdi ki, işləyən qadın və kişilər əsasən vaxtın azlığından ailəsinə və uşaqlarının təhsilinə, inkişaf və tərbiyəsinə yetərincə vaxt ayırmadıqlarını bildirmişlər. Əlbəttə, bu ailə üzvlərinin bir-biri qarşısındakı məsuliyyətin olması məsələsini bir daha gündəmə gətirir. Hətta psixoloqlar qeyd edirlər ki, işləyən qadınlar həyat yoldaşına və övladlarına kifayət qədər vaxt ayıra bilmədikləri üçün hər zaman özlərini daxilən narahat və ailə üzvləri qarşısında mənəvi olaraq borclu hiss edirlər. İmkan daxilində bu itkini əvəzləmək üçün boş vaxtlarından maksimum istifadə edirlər ki, həm həyat yoldaşını məmnun etsinlər, həm də uşaqların təlim-tərbiyəsi, təhsili ilə məşğul olsunlar. Belə ki, respondentlərin 36,4%-i əvvəl daha çox işlədiklərini, ailəsi ilə bir yerdə olmağa vaxtının qalmamasını bildirmişdir.

Respondentlərin 8,1%-i "əvvəl həyat yoldaşıma kifayət qədər vaxt ayıra bilmirdim", 6,7%-i "əvvəl vaxtımın çoxu işə və dostlarıma sərf olunurdu, indi isə ailəmə, övladıma", 6,9%-i "həyat yoldaşımla, övladım və ya övladlarımla bu qədər səmimi ünsiyyətim olmamışdı" fikirlərini qeyd etmişlər. Bu cavablar bir daha göstərir ki, ailə üzvləri arasında ünsiyyət problemi mövcuddur. Eyni zamanda, sürətli həyat tərzi, iş rejimi, sosial-iqtisadi proseslər ailə həyatına dolayısı – psixoloji (ər və arvadın fərdi xüsusiyyətləri, ailə münasibətlərinin xüsusiyyətləri və s.) təsir göstərir.

Ailədə uşaqların ata-ana ilə ünsiyyət tələbatı çox vaxt təmin olunmur. Belə ki, respondentlər əvvəl övladlarının maraq və məşğuliyyətlərini bu qədər yaxından müşahidə etmədiklərini (17,7%), və ya onların problemlərini bu qədər yaxından görə bilmədiklərini (7,9%) qeyd etmişlər.

**Karantindən əvvəl və hazırda ailəyə olan münasibətdə baş vermiş dəyişikliklərin bölgüsü, faizlə**

| | |
|---|---|
| əvvəl daha çox işləyirdim, ailəmlə bir yerdə olmağa vaxtım qalmırdı | 36,4% |
| əvvəl  vaxtımın çoxu işə və dostlarıma sərf olunurdu, indi isə ailəmə, övladıma | 6,7% |
| əvvəl övladlarımın maraq və məşğuliyyətlərini bu qədər yaxından müşahidə edə bilmirdim | 17,7% |
| əvvəl həyat yoldaşıma kifayət qədər vaxt ayıra bilmirdim | 8,1% |
| ailə təsərrüfatı ilə məşğul ola bilmirdim | 5,2% |
| əvvəl itirmək qorxusu keçirmirdim, ona görə də ailə üzvlərimə qarşı bir qədər soyuq davranırdım | 1,4% |
| övladlarımın problemlərini bu qədər yaxından görə bilməmişdim | 7,9% |

| | |
|---|---|
| həyat yoldaşımla, övladım və ya övladlarımla bu qədər səmimi ünsiyyətim olmamışdı | **6,9%** |
| bir yerdə nahar etməyimizi artıq unutmaq üzrə idim | **1,9%** |
| hər gün eyni hərəkət və işləri görmək məni yorur | **4,8%** |
| həyat yoldaşımın bir çox çatışmazlığını izlədim | **0,5%** |
| ailədaxili münasibətlərdə bir gərginlik yaşayıram | **0,5%** |
| bizi mehriban edən işləməyimizdir | **0,5%** |
| ərimin mətbəx və təmizlik işlərinə qarışması məni səbrsiz edir | **1%** |

Diqqət çəkən məqamlardan biri pandemiya zamanı kişi və qadınların ev təsərrüfatı daxilində gördükləri işi dəyərləndirmələri idi. Belə ki, sorğuda iştirak edən kişi respondentlərin 37,7 %-i “arvadımın gün ərzində nə qədər zəhmət çəkdiyini bu qədər yaxından izləməmişdim” – deyə cavablandırmışlar ki, bu da bütövlükdə kişinin gün ərzində qadının gördüyü işə verdiyi qiymətdir. Qadın respondentlərin 14.6%-i isə “ərimin bu qədər ailəcanlı, evə bağlı bir insan olduğunu bilmirdim” qeyd etmişdir. Ümumiyyətlə, elmdə “haqqı ödənilməyən əmək” anlayışı mövcuddur. Bu, ev daxilində qadın və kişilərin gördükləri bütün işləri, hərəkət və davranışları özündə ehtiva edir.

**Kişi və qadınların ev təsərrüfatı daxilində gördükləri işin dəyərləndirilməsi, faizlə**




Ailədaxili münasibətlərin tənzimlənməsi, ailədə baş verən mübahisələrin səbəbləri hər zaman aktuallıq kəsb etmişdir. Karantin dövründə isə bu aktuallıq daha da artır. Çünki, bir qayda olaraq, tədqiqatçılar bildirirlər ki, böhranlı vəziyyətlərdə hər zaman ailələrdə münaqişələrin sayı artır. Bu baxımdan da sorğunun müəyyən hissəsi karantin dövründə ailələrdəki vəziyyətin müəyyən edilməsinə həsr edilmişdir. Sorğuda iştirak edənlərin 21,3%-i “adi vaxt daha tez-tez olurdu”, 25,7%-i “adi vaxtda biz heç vaxt mübahisə etməmişik, amma indi hərdən kiçik mübahisə olur”, 17,6%-i “bizdə mübahisə həmişə olur, istər adi vaxtda, istərsə də karantin dövründə”, 35,4%-i isə “bizim ailədə heç vaxt mübahisə olmayıb” deyə cavablandırıblar.

**Ailədə baş verən mübahisələrin bölgüsü, faizlə**




Sosial izolyasiya və xüsusi karantin dövründə ailədə yaşanan hər bir gərginlik, mübahisə, münaqişə uşaqlara da təsir edir. Sorğuda iştirak edənlər "Həyat yoldaşınızla olan münasibətlərinizin (gərginlik yaşandıqda) övladlarınıza təsiri?" sualına əsasən bunu gizlətməyə çalışdıqlarını bildiriblər. Belə ki, respondentlərin 78,8%-i "ailədə yaşanan gərginliyi mümkün qədər gizlədirəm" cavabını vermişdir. 21,2%-i isə ailədə yaşanan gərginliyin uşaqlara təsir göstərdiyini bildirmişdir.

Respondentlərə təqdim olunan "ümumiyyətlə, həyat yoldaşınız sizin fikrinizlə hesablaşırmı?" sualına 47,3% "bəli, həmişə hesablaşır", 41,5% "xeyr, hesablaşmır", 11,2% isə "qismən, bəzi hallarda hesablaşır" cavablandırmışlar. Burada da digər hesablama əsasında məlum olmuşdur ki, sorğuda iştirak edən kişi respondentlərin böyük əksəriyyəti, yəni 78,2%-i həyat yoldaşlarının onun fikri ilə həmişə, 19,5%-i bəzi hallarda hesablaşdığını bildirmişdir. Onların çox kiçik bir hissəsi, yəni 2,3%-i həyat yoldaşının onunla hesablaşmadığını bildirmişdir. Lakin qadın respondentlərin fikirləri fərqlidir. Belə ki, qadınların 22,1%-i həyat yoldaşlarının onun fikri ilə həmişə, 15,3%-i bəzi hallarda hesablaşdığını bildirmişdir. Onların əsas hissəsi isə, yəni 62,6%-i həyat yoldaşının onunla hesablaşmadığını bildirmişdir.

Baxmayaraq ki, sorğuda iştirak edənlərin 65,7%-i zorakılıq halının baş vermədiyini bildirsə də, onların 68,7%-i "mənə", 27,4%-i "valideynlərimə", 3,9%-i isə "uşaqlara" qarşı zorakılığın olduğunu qeyd etmişdir. Ayrılıqda isə qadın respondentlərin 68,2%-i, kişi respondentlərin isə 15,1%-i zorakılıq hallarının onlara qarşı baş verdiyini qeyd etmişdir. Kişilərin 84,9%-i, qadınların isə 31,8%-i sualı cavablandırmamışdır. Bir daha xatırlatmaq istərdik ki, tədqiqatın əsas vektoru ailə daxilində şəxslər arasındakı münasibətin öyrənilməsi olduğu üçün burada zorakılığın daha çox mənəvi-psixoloji, emosional forması nəzərdə tutulur. Respondentlərin də fikirlərində bu məsələ bir daha təsdiqlənir. Belə ki, onlar bir-birini anlamaqda çətinlik çəkdiklərini, qarşılıqlı səbrsizlik nümayiş etdirdiklərini bildirmişlər. Lakin zorakılığın digər formaları da qaçılmaz deyil. Belə ki, respondentlərin 14,4%-i maddi sıxıntını, 9,3%-i etik qaydaların qarşılıqlı pozulmasını (kobudluq, xəyanət, hörmətsizlik), 8,1%-i zərərli vərdişlərə aludəçiliyi (spirtli içkilər, narkotik maddədən istifadə etmək və s.), 6,1%-i qısqanclığı ailədə mübahisələrin səbəbi kimi göstərmişdir ki, bu da zorakılığın digər formalarının baş verməsi hallarına əsas ola bilər.

| Ailə mübahisələrinin əsas səbəblərinin bölgüsü, faizlə | |
|---|---|
| bir-birimizi anlamırıq | 34,1% |
| səbrsizlik | 15,5% |
| maddi sıxıntı | 14,4% |
| etik qaydalar qarşılıqlı pozulur (kobudluq, xəyanət, hörmətsizlik) | 9,3% |
| zərərli vərdişlərə aludəçilik (spirtli içkilər, narkotik maddədən istifadə etmək və s.) | 8,1% |
| qısqanclıq | 6,1% |
| uşaqların tərbiyəsində vahid yanaşmanın olmaması | 5,9% |
| savadsızlıq | 5,1 |
| məişət işlərini, qayğılarını bölüşməkdən imtina etmək | 1,5% |

**Qadın və kişilərə qarşı baş vermiş zorakılıq hallarının bölgüsü, faizlə**




**Ailədə zorakılıq hallarının kimə qarşı baş verməsinin bölgüsü, faizlə**



**Ailədə zorakılıq hallarının baş vermə hallarının bölgüsü, faizlə**




| | Ailədə zorakılıq hallarının baş vermə hallarının bölgüsü, faizlə |
|---|---|
| bəli, tez-tez baş verir | 1,3 |
| mən zorakılığın nə olduğunu bilmirəm | 12,9 |
| bəli, hərdən baş verir | 20,1 |
| xeyr, baş vermir | 65,7 |

Respondentlər "Çətin vəziyyətə düşdükdə kimə müraciət edirsiniz?" sualına əsasən valideynlərinə (51,3%), dost və ya rəfiqələrinə (35,6%) müraciət etdiklərini bildiriblər. Sorğuda iştirak edənlərin 9,7%-i yaxın qohumlarına, 3,4%-i isə psixoloqa müraciət etdiklərini bildiriblər. Bütövlükdə, respondentlərin 96,6%-i yaxın insanlara, ailə üzvlərinə müraciət edirlər ki, biz bunun acı nəticələrini, ağır fəsadlarını müşahidə edirik.

Respondentlər "Ailədə problemlə üzləşsəniz kimin köməyinə arxalanarsınız?" sualına cavab olaraq daha çox özünə (34,1%), valideynlərinin (28,7%) köməyinə arxayın olduqlarını bildirmişlər. Ümumilikdə 37,2% dövlətə (25,3%) və hüquq-mühafizə orqanlarının (11.9%) köməyinə arxayın olduqlarını bildirmişdi. Artıq vətəndaşlar problemlərinin hüquqi müstəvidə həll edilməsinə üstünlük verirlər. Çünki ancaq bu halda onlar özünü tam müdafiə olunmuş hesab edə bilər.

Təhlilin nəticəsi kimi qeyd etmək olar ki, pandemiya və böhranlı dövrlərdə qadın və qızların müdafiəsi məsələləri xüsusi yanaşma, diqqət tələb edir.

Karantin dövründə hazırki durumu qiymətləndirmək məqsədilə respondentlərə təqdim edilən sorğunun təhlili bir daha göstərdi ki, mühitdə, cəmiyyətdə baş verən hər bir hadisə bu və ya digər şəkildə ailəyə təsir edir. Bəşəriyyətin üzləşdiyi çətinliklər və gərginliklər ailə məsələlərini bir daha önə çıxarır və onun əhəmiyyətini artırır. Çünki hər bir ailədə böyüyən və tərbiyə alan insan, bütövlükdə dünyaya təsir edə bilir və onun təməlini təşkil edir.

## Müsabiqə

### "Görünməyən qəhrəmanlar" mövzusuna həsr olunmuş "Ən yaxşı yazı" müsabiqəsi

Komitə 2020-ci il ərzində gənclər, uşaqlar, ailələr arasında müxtəlif müsabiqələr elan etmiş və qaliblərin mükafatlandırılmasını həyata keçirmişdir. Mövcud sosial izolyasiya və karantin vəziyyətini nəzərə alaraq, müsabiqə və yarışmalar onlayn formatda təşkil edilmişdir.

Komitə bütün dünyada yayılan koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə tətbiq olunan xüsusi karantin rejimi ilə bağlı dövlətin apardığı mübarizə tədbirlərinə qoşularaq müxtəlif tədbirlər, müsabiqələr, kampaniyalar həyata keçirmişdir. Pandemiya ilə mübarizə çərçivəsində 15 aprel – 15 may tarixlərində cəsurluğu və əzmkarlığı ilə seçilən tibb işçilərinin, polis və fövqəladə hallar orqanlarında xidmət göstərən insanların fəaliyyətini əks etdirən "Görünməyən qəhrəmanlar" mövzusuna həsr olunmuş "Ən yaxşı yazı" müsabiqəsi elan edilmişdir. Müsabiqənin mövzusunun uşaqların da böyük marağına səbəb olması, onlar tərəfindən də çoxsaylı yazıların daxil olması nəzərə alınaraq, "yazarlar və jurnalistlər arasında ən yaxşı yazı" və "məktəblilər arasında ən yaxşı yazı" olmaqla iki nominasiya müəyyən edilmişdir.

Müsabiqəyə təqdim edilən yazıların qiymətləndirilməsinə əsasən, 1-ci nominasiya üzrə ssenarist, kinoredaktor Rafiq Səməndər, 2-ci nominasiya üzrə isə Abşeron rayonu, Saray qəsəbəsi, Azim Müzəffərov adına 2 saylı orta məktəbin 8d sinif şagirdi Səma Quliyeva qalib seçilmişdir.

Sentyabrın 15-də qaliblərin mükafatlandırılması məqsədilə Komitədə tədbir təşkil edilmiş və qaliblərə diplom və hədiyyələr təqdim edilmişdir.









## “Ailəm” müsabiqəsi

Komitə tərəfindən Prezidenti İlham Əliyevin yeni koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə çərçivəsində elan etdiyi “Biz birlikdə güclüyük!” şüarına dəstək olmaq, həmçinin xüsusi karantin rejimi ilə əlaqədar ailələri ev şəraitində asudə vaxtını səmərəli və faydalı keçirməyə stimullaşdırmaq məqsədilə aprelin 6-da “Ailəm” müsabiqəsinə start verilmişdir.

Müsabiqəyə ümumilikdə 23 ailə tərəfindən 26 video və 17 foto material daxil olmuşdur. Ailələr tərəfindən anket və foto/video materiallar müsabiqədə iştirak üçün qəbul edilmiş, müsabiqənin məqsədinə uyğunluğu, materialın orijinallığı, keyfiyyəti, məzmunu kimi meyarlar əsasında münsiflər heyəti tərəfindən qiymətləndirilmişdir.

Müsabiqənin münsiflər heyəti tərəfindən Zaqatala rayonundan olan “Məmmədovlar” ailəsi ”Ailəm” müsabiqəsinin “Ən yaxşı foto material” nominasiyası üzrə, İsmayıllı rayonundan olan “Süleymanovlar” ailəsi “Ən yaxşı video material” nominasiyası üzrə qalib seçilmişdir.





## “Qələbəyə doğru” kuboku uğrunda intellektual oyun

Komitə tərəfindən ənənəvi olaraq uşaqlar arasında hər il keçirilən “Qələbəyə doğru” kuboku uğrunda intellektual oyun uşaqların dünyagörüşünün artırılması, yeni biliklərin əldə edilməsinə stimullaşdırılması və asudə vaxtın səmərəli təşkili məqsədini daşıyır.

Hazırki dövrdə qlobal pandemiyadan irəli gələrək və karantin dövrünün tələblərini nəzərə alaraq onlayn formatda keçirilən oyunda 52 nəfər iştirak etmiş və onlardan 3 nəfəri finala vəsiqə qazanmışdır.

Mayın 3-də Komitənin rəsmi “facebook” səhifəsində canlı yayım vasitəsilə keçirilən oyunun final mərhələsində hər bir finalçı əzmlə biliklərini nümayiş etdirərək yarışmışdır. Yarışın nəticələrinə əsasən, suallara ən çox düzgün cavab verən Ağstafa rayon, Dağkəsəmənli kənd 2 saylı orta məktəbin 9-cu sinif şagirdi Nərmin Paşayeva qalib elan olunaraq, “Qələbəyə doğru” kubokunu qazanmışdır.





## Sosial şəbəkələrdə fəaliyyət

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəsmi sosial şəbəkə hesablarında cari il ərzində mütəmadi olaraq maarifləndirici informasiyalar və məlumatlandırıcı video çarxlar yerləşdirilmiş, Komitənin fəaliyyəti geniş şəkildə işıqlandırılmışdır. Pandemiya səbəbindən elan olunmuş karantin və sosial izolyasiya dövründə Komitənin sosial şəbəkələrdə fəaliyyəti daha da artırılmış və səhifə istifadəçilərinin sayında artım müşahidə olunmuşdur.

Xüsusilə də, Komitənin rəsmi "Facebook" səhifəsində mütəmadi olaraq qadın və uşaq məsələlərini əhatə edən, eləcə də ailə dəyərlərini təbliğ edən canlı yayımlar edilmiş və ekspertlərin iştirakı ilə birbaşa onlayn təlimlər keçirilmişdir.

Karantin dövründə insanların evdə qaldıqları vaxtı səmərəli keçirmələri məqsədilə müxtəlif mövzuların müzakirəsinə həsr olunmuş onlayn proqramlar təşkil olunmuş, izləyiciləri maraqlandıran və onlar tərəfindən ünvanlanan suallar cavablandırılmışdır. "Həyati bacarıqlara yiyələn", "Uşaqların asudə vaxtının səmərəli təşkili", "Uşaqların internet təhlükəsizliyi", "Uşaqların inkişafında oyunun rolu", "Uşaq və gənclərin uğurlu ixtisas seçimi", "Pandemiya dövründə ailələrdə yaranan psixoloji problemlər və onların həlli yolları", "Ailədə uşaqlarla uğurlu ünsiyyət və birgə fəaliyyətin vacibliyi", "Karantin vəziyyətində sağlamlıq imkanları məhdud uşaqların psixoloji reabilitasiyası", "Ailə və Mədəniyyət" və digər aktual mövzularda birbaşa canlı bağlantı vasitəsilə müzakirələr keçirilmişdir. Ümumilikdə, təşkil olunan canlı müzakirələrə 25 mindən çox baxış olmuş, 50 mindən çox insan əhatə olunmuşdur.

Komitənin "Facebook" səhifəsini bəyənənlərin sayı son 1 ildə (06.12.19-06.12.20) 7000-dən 17050-dək artmışdır. Səhifə izləyicilərinin sayı isə qeyd edilən müddətdə 7682-dən 17 492-dək yüksəlmişdir. "Facebook" üzərindən 370 vətəndaş müraciət daxil olmuş və qeydə alınaraq müvafiq tədbirlər görülmüşdür.

Komitənin "Facebook"səhifəsinin izlənmə və bəyənmə sayı




Eyni zamanda Komitənin "Twitter" səhifəsində də aktivlik nəzərə çarpmışdır.

Son 1 ildə (12.19.-12.20) izləyicilərin sayı 116-dan 735-dək yüksəlmişdir (təxminən 600%).

Bu müddət ərzində səhifədə ümumilikdə 292 tvit paylaşılmışdır.




7 sentyabr 2020-ci il tarixindən etibarən Komitənin rəsmi "İnstagram" səhifəsi fəaliyyətə başlamışdır. Yeni yaradılan səhifəyə 4 ay ərzində 154 izləyici cəlb edilmiş və 58 post paylaşılmışdır.

# Uşaq Səfirlər Məclisi üzvlərinin qələbə təəssüratları

Komitənin layihəsi olaraq yaradılan Uşaq Səfirlər Məclisinin üzvləri bu il ərzində Azərbaycan uşaqlarını təmsil edərək, hər bir uşağın səsi kimi uşaq hüquqlarının müdafiəsi, onların arzu və istəklərinin reallaşdırılması istiqamətində uğurlu fəaliyyət göstərmişlər. Xüsusən də torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə haqq səsimizin və Qarabağ müharibəsi dövründə uşaqlara qarşı törədilən erməni terrorizminin dünyaya çatdırılmasında yaxından iştirak edərək öz töhfələrini vermişlər. Məclis üzvlərinin iştirakı ilə BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasının 31-ci ildönümünə həsr olunmuş beynəlxalq konfransda bir daha Azərbaycanın mülki əhalisinin, xüsusən də azyaşlıların erməni vandalizminin qurbanı olması məsələsi müzakirə edilmiş və beynəlxalq hüququn prinsiplərinə əsasən günahsız insanların müharibənin qurbanı olmasının qəbuledilməz olduğu vurğulanmışdır.
Uşaqların ölkəmizin qələbəsi ilə bağlı təəssüratlarını təqdim edirik.



### Nurlan Cəbrayılzadə

"2020-ci il xalqımız üçün dönüş nöqtəsi oldu. Məhz bu il Azərbaycan xalqı öz əzilməz, əyilməz, məğrur iradəsini bir daha sübuta yetirdi. Bizlər illərdir əsl vandalların əsarətinə düşmüş, talan edilmiş, dilbər guşəmiz olan Qarabağımızı qaytardıq. Bu qələbəyə görə yalnız məğlubedilməz, məğrur və müzəffər ordumuza, onun qətiyyətli Ali Baş Komandanına borcluyuq.
Qələbən mübarək, AZƏRBAYCAN!"



### Aydan Hacıyeva

"Azərbaycan Prezidentinin xalqın milli maraqlarına söykənən xarici siyasətinin nəticəsidir ki, heç bir kənar qüvvə bu gün bizim ədalətli mübarizəmizə mane ola bilmədi. Hər zaman xalqına arxalanan Azərbaycan Prezidenti bütün təzyiqləri dəf edərək, hər kəsə layiq olduğu cavabı verdi. Onun təzahürüdür ki, bu gün biz qalib tərəfik".



### Yunis Quliyev

"Ərazi bütövlüyünü bərpa edən, tarixi torpaqlarında üçrəngli bayrağımızı ucaldan Azərbaycan dövləti bu tarixi qələbədən sonra daha da qüdrətlənəcək, inkişaf edəcək. Bizlər bu qələbəni, ən əsası zəfəri şəhidlərimizin qanı bahasına qazanmışıq. Vətən müharibəsində öz qanı, canı bahasına torpaqlarımızı qoruyan şəhidlərimizə Allahdan rəhmət diləyirəm."



### Rifah Zeynalov

"Ali Baş Komandanımız 44 gün ərzində qəti siyasi iradə nümayiş etdirərək öz prinsipial mövqeyindən dönmədi. Bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi. Müharibənin qızğın vaxtlarında ölkə başçısının dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi."



### Həyat Ağayeva

"Azərbaycan ordusu cəmi bir ay ərzində düşmənin ordusu haqqında illərdir formalaşdırdığı "yenilməzlik" mifini darmadağın etdi. Bu gün düşmən artıq Azərbaycan ordusunun gücünü görür və onunla hesablaşmaqdan başqa yolunun olmadığını dərk edir".



### Rüfət Məmmədov

"30 il sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin, mərd, cəsur və məğlubedilməz Azərbaycan xalqının qətiyyəti, yorulmaz mübarizəsi ilə ermənilərə tarix dərsi verildi. Tarixi ədalətin bərpası gerçəkləşdirildi. Qarabağın azadlığına dair olan 10 noyabrda imzalanmış razılaşma Azərbaycan tarixinə "Şanlı Qələbə bayramı" kimi düşdü. Beləliklə 30 il işğal altında olan torpaqlarını 44 günə azad edən Azərbaycan xalqı və prezidenti bütün dünyaya sübut etdi ki, Qarabağ AZƏRBAYCANDIR!".

### Əsmər İsmayılova



"İkinci Qarabağ müharibəsi zamanı biz bir daha Ermənistanın terrorçu xislətinin şahidi olduq. Onlar mülki əhalini hədəf seçərək, xüsusilə də uşaqları amansızlıqla qətlə yetirdilər. Nəticədə 12 uşaq həyatını itirdi, 50 uşaq yaralandı. Ermənistan həm də öz uşaqlarını müharibəyə cəlb edərək, beynəlxalq sənədlərdən irəli gələn müddəalara məhəl qoymayaraq uşaqların hüquqlarını pozdular. Mən təklif edərdim ki, məktəblərarası bir layihə keçirilərdi ki, İkinci Qarabağ müharibəsi, erməni vandalizmi və həyatını itirmiş uşaqlar barəsində səsimizi eşitdirmək üçün hər məktəbdən şagirdlər bizə öz maraqlı təklif və ideyalarını bildirsinlər. Onlarla birlikdə səsimizi beynəlxalq təşkilatlara çatdıraq. Beləliklə, həm təbliğat güclənər, həm də bu mövzuda informasiya artar".



### Abdulla Nağıyev

"Bu yaxınlarda İkinci Qarabağ müharibəsinin şahidi olduq. Sonunda 30 illik həsrətimiz bitti və bu müharibədə xalqımız düşməni əzərək birlik nümayiş etdirdi. Ermənistan Azərbaycanın ərazisini işğal etməklə böyük səhv etmişdi və bilməli idilər ki, Azərbaycan xalqı heçnəyi unutmur. Bir daha belə hadisənin baş verməyəcəyini bilirik, çünki onları öz yumruğumuzla çökərtmişik".



### Nəcibə Allahverdiyeva

"Dünən könlümüz keçdiyi yerlərdən bu gün ordumuz keçir. Dünənin gözü yaşlı uşaqları bu gün Vətən uğrunda canlarından keçir".



**Əkrəm Məlikov**

"İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının itirilmiş tarixi torpaqlarına geri dönməsi ilə nəticələndi. Bu tarixi qələbə əsgərlərimizin qanı hesabına ədalətin bərpa olunması ilə bütün Azərbaycanın sevincinə səbəb oldu. Bizlər heç bir zaman şəhidlərimizi unutmayacağıq."

**Məhəmməd Məmmədov**



"Sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusunun qazandığı möhtəşəm Qələbə müasir tarixin ən şanlı səhifələrindən biridir. Cənab Prezidentin qeyd etdiyi kimi, bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük, yenilməz, dəmir iradəli xalq olduğunu, ordumuzun yenilməz və müzəffər ordu olduğunu göstərdi. Azərbaycan ordusunun işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı ölkəmizin tam Qələbəsi və düşmənin kapitulyasiyası ilə nəticələndi. Budur Azərbaycan ordusunun və xalqının gücü."



**Həbib Məmmədov**

"Bu tarixi zəfər, torpaqlarımızın azad edilməsi həm də Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Bu müharibə Azərbaycan xalqının, onun liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi."



**Müslüm Məmmədov**

"Heç şübhəsizdir ki, bu 44 günlük şanlı döyüşlərdə Azərbaycan əsgərinin gücü, igidliyi, dönməzliyi hamıya məlum olmuş, düşmənə böyük qorxu salmışdır. Qarabağ vandalların əlindən xilas olmuş, yenidən Azərbaycanın tərkibinə qatılmışdır".

*Psixoloq məsləhəti*

# PANDEMİYA DÖVRÜNDƏ ASUDƏ VAXTIN SƏMƏRƏLİ KEÇİRİLMƏSİ

Aylardır bütün dünyada COVİD-19 bəlası yaşanır, həqiqətən vəziyyət çox ciddidir. Hər kəs bu virus haqqında danışır, müzakirələr edir, məlumatlar oxuyur, qarşısını almaq üçün mübarizə yolları axtarır. Gözlə görmədiyimiz bu virus dünyanı ovucunda saxlayır. Bir-birimizdən qorxar olduq, uzaq durmağa, aramızda bir-birimizi damğalamağa başladıq. Yaşlı insanların və risk qrupuna daxil olan insanların ən çox təhlükədə olduğu vurğulanmağa başlandı – özümüzü yaşlılarımızın qarşısına sipər etmək istədik.

Bəlkə də, çoxlarımız fərqinə varmırıq, ancaq biz bir tarix yaşayırıq – böyük dünya ilə kiçik virusun qarşı-qarşıya döyüşdüyü, çarpışdığı bir tarix... hər döyüşün bir qalibi olar, bir məğlubu, yəni döyüşən iki tərəfin biri qalib, biri məğlub olur, bu qanun yox, aksiomdur. Bəs bu mübarizədə qalib kim, məğlub kim olacaq? Tarix kimin üçün nə yazacaq, necə bir hökm oxuyacaq? Dünyanın əşrəfi sayılan, yaranışdan üzü bu yana çox-çox bəlaların, virusların kürəyini yerə vurub dizini qatlayan insan oğlu koronanı da ayağının tozu etməyi bacaracaqmı?! Bacaracaq, əgər hamı ayağını yerə inamla, qətiyyətlə basa bilsə. Və ...

Bu gün hər birimiz çölə – küçəyə, kütlə içinə çıxan qapıları bərk-bərk bağlamışıq. İndi bağlı qapılar arxasındakı bu məcburi dövrü düzgün dəyərləndirməyimiz lazımdır. Günlərimizi həm disiplinli, həm də əyləncəli yaşamağı bacarmalıyıq. Zamanı düzgün yönləndirməyimiz üçün qarşıya düzgün hədəflər qoymağımız lazımdır. COVİD-19 virusu insanların həyatına hərtərəfli zərbələr vurmaqdadır. Ən çox psixoloji problemlərin sürətlə artdığı bir dövrdəyik. İnsanlarda stress faktorunun artması, depressiyanın çoxalması müşahidə olunur. Ata və analar çox təşviş halında qayğı pozuqluğu yaşayırlar. “Biz yoluxarıqsa, övladlarımız necə olar?” düşüncəsi narahatlıq yaradır. Bu vəziyyətdə qayğı yaşamaq normaldır, lakin aşırı qayğı yaşamaq mübarizə zamanı faydalı sayılmaz. Düşüncələrimizdə pis ssenarilər yazaraq, ruh halını gərginləşdirərək orqanlarımıza fəsadlar yaratmamağımız lazımdır.

Bu izolyasiya dövründə, yoluxmanın artdığı





zamanda istəmədən təkliyə çəkilmək, özümüzlə bərabər ətrafımızdakı insanları da qorumaq məcburiyyətindəyik.

Paskalın bir fikri vardır: “Bədbəxtliyin tək səbəbi insanın tək başına qala bilməməsidir”. Halbuki, hamımız bir stolda, bir otaqda səssizcə oturub təfəkkür etməyi, oxumağı, xəyal qurmağı, könlümüzdən xoş xəyallar keçirməyi bacarmalıyıq. Zehnimiz ən hündür divarları belə aşa bilər. Xəyal qanadlarında bütün dünyanı dolaşıb dururıq... Xəyallarımız bizi getmədiyimiz yerlərə, görmədiyimiz insanlara, arzuladığımız istəklərimizə aparar.

Hazırda can sıxıntısı çox aktual bir problem olub. Yaşadıqlarımızla barışa bilmədiyimiz, özümüz ilə baş-başa qala bilmədiyimiz anlarda canımız sıxılır. Tək qalanda pis düşüncələr bizi yorur, qorxudur. Bu qorxu qarşısında ya acizləşirik, yaxud da bundan qaçırıq. Əslində isə can sıxıntısı bizim xəyal qurma bacarığımızı daha da inkişaf etdirir. Bu sıxıntılı anlarda evdə qalaraq həyatı evə sığdırmaq və əlimizdə olan fürsətləri dəyərləndirməyə çalımalıyıq. Ekran qarşısında yaxud telefon asılılığından uzaqlaşaraq ailələr birlikdə zaman keçirməlidirlər. Sosial məsafəni uzaqlaşdırmaq, ruhsal məsafəni yaxınlaşdırmaq lazımdır. Kitab alaraq hər ailə üzvü bir-bir kitabı eyni zamanda oxuyaraq bir-birinə ötürməli, müzakirə etməli, fikir paylaşmalı və bunu övladlarına da öyrətməlidirlər. Bu anlarda təqdir etmək, uşaqlarımızın yaxşı hərəkətlərini dilə gətirmək çox önəmlidir. Bu dönəmdə ailə üzvləri bir-birinə qarşı diqqətli olub yaxşı cəhətləri üzə çıxartmalı və yanlışlarını xatırlatmağı bacarmalıdılar. Yeni hobbilər yaratmaq, uzun zamandan bəri evdə etmək istədiklərimizi həyata keçirtməyə başlamaq və zamanımızı sərfəli keçirməyimiz lazımdır. Fürsətdir deyib öz düşüncələrin ilə baş-başa qalaraq zehni yorğunluqdan xilas olmaq üçün “səhər vərəqlərini” yazmağa başlamaq. Səhər saatlarında yuxudan oyanaraq təmiz hava qəbul edərək zövqümüzə görə bir fincan qəhvə yaxud çay içərək başlamaq lazımdır. Bu saatlarda şunrumuz təmiz və açıq olduğu üçün çox gözəl nəticələr verir.

Hər axşam yatmazdan öncə özünə suallar ver, qoy beynin o suallarına cavablar versin. Sənə basqı edən mənfi düşüncələrin yaranma səbəblərini anla və fərqində ol.

Həyatını gözəlləşdirərək öz dünyanı yarat və orda hədəflərinə yetişəcək cəsarətini gör.

Gün ərzində özünə icazə ver. Var olub da göstərə bilmədiyin müsbət cəhətlərini üzə çıxar. Bəlkə, daxilində çox bacarıqlı bir aşbaz vardır. Keç mətbəxə, o bacarıqlarını göstər, amma tək yox, ailə üzvlərinlə birlikdə.

İllərdir yazmaq istədiyin, etiraf etmək istədiyin duyğuların varsa, yazmağa başla, yazdıqca davamı gələcəkdir.

Heç diqqət etmədiyin evinin hər guşəsini gəzməyə başla, yeniliklər yarat və bundan zövq al.

Həyat davam edir. Yaşanan narahatlıqların fərqində olaraq, məntiqi yanaşaraq bütün çətinliklərə, eləcə də koronavirusa qalib gələ bilərik. Bu gün ayrı düşsək də, hərə öz evinə qapansa da unutmayaq ki, BİZ BİRLİKDƏ GÜCLÜYÜK!

Unutmayaq ki, düşüncələrimiz kimi çətinliklər də daimi deyildir. Daimi olmadığı və həll yolları olan problemlər, çətinliklər qarşısında daha cəsarətli və başarılı olmaq diləyi ilə.

Əziz oxucularımız, sizə bu çətin və gərgin zamanda xoşbəxt, uğurlu günlər diləyirik.

*İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin*
*Psixoloq və ailə məsləhətçisi*
*Ülkər Məhərrəmova*